

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

27 fevral 2026-cı il, cümə

№ 038 (7105)

Qiymәti 60 qәpik





# Ədalətin təntənəsi!

Bax səh. 2

# İlham Əliyev: Ədaləti biz özümüz təmin etdik!




Bax səh. 2-3

## Xocalı soyqırımını törətmiş, əli Azərbaycan xalqının qanına batmış quldurlar məhkəmə qarşısında cavab verməli oldular




## Yeni Azərbaycan Partiyasının nümayəndələri Xocalı soyqırımı abidəsini ziyarət ediblər

Bax səh. 3

## Sülh prosesində tam liderlik...

Bax səh. 4

## Azərbaycan Xocalı soyqırımını dünyada tanıdır



Bax səh. 5

## Biznesin inkişafı sahəsində optimallaşdırma

Bax səh. 4

## SOCAR və "Samsung" anlaşdı

Bax səh. 5

## İlk dəfə Çində...

Bax səh. 6

## Münaqişə nə vaxt bitir?

Bax səh. 6

## Kuba sosial fəlakət ərəfəsində

Bax səh. 7




## Ağ Evin səmasında yeni simvol

Bax səh. 7

## Pasifizmdən hərbi aktivliyə doğru

Bax səh. 7

# Ədalətin təntənəsi!



## İlham Əliyev: Ədaləti biz özümüz təmin etdik!

### Xocalı soyqırımını törətmiş, əli Azərbaycan xalqının qanına batmış quldurlar məhkəmə qarşısında cavab verməli oldular















Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri fevralın 26-da Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Memorialın önünə əklil qoydu.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma Memorial barədə məlumat verdi.

Qeyd edək ki, Xocalı Soyqırımı Memorialı Prezident İlham Əliyevin 2025-ci ilin fevralında imzaladığı Sərəncama əsasən, Xocalı faciəsi qurbanlarının xatirəsinin əbədiləşdirilməsi, tarixi həqiqətlərin gələcək nəsillərə çatdırılması və milli yaddaşın qorunması məqsədilə yaradılıb.

Layihə Heydər Əliyev Fondu tərəfindən hazırlanan konsepsiya əsasında reallaşdırılıb.

Memorialı dörd tərəfdən əhatə edən monolit Xocalı sakinlərini soyqırımından qorumağa çalışan rəmzi əllər formasında layihələndirilib.

Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq Memorialın həyətində qış fəslinin sonunda çiçək açan və yazın müjdəçisi olan badam ağacları əkilib. Bu illər ərzində "Xocalıya ədalət!" kampaniyasının rəmzi də badam çiçəyi seçilib və bu, təsadüfi deyil. Badam çiçəyi Xocalıda 1992-ci ilin fevral ayında törədilmiş soyqırımına münasibətdə ədalətin təmin olunmasını əks etdirir.

Memorial dörd bölmədən ibarətdir. İlk iki bölmədə Xocalı soyqırımı qurbanlarının xatirəsini yaşadan ekspozisiya zalı yaradılıb.

Ekspozisiya ziyarətçiləri "Faciənin siması" instalyasiyası ilə qarşılayır. Rəşad Ələkbərov və Azər Rüstəmovun müəllifləri olduqları instalyasiya 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermiş soyqırımının qurbanlarını - qətlə yetirilmiş dinc sakinləri, məhv olmuş ailələri canlandırır.

Memorialın tavanı boyu uçuşan göyərçin maketləri isə bütün dünyaya sülh arzulayan Xocalının faciə zamanı qətlə yetirilmiş günahsız sakinlərinin xatirəsinə ehtiram əlamətidir.

XX əsrdə insanlıq əleyhinə ən dəhşətli cinayətlərdən biri olan Xocalı soyqırımına həsr edilmiş ekspozisiyada Ermənistan-Azərbaycan münaqişəsinin tarixi kökləri, işğalçılıq siyasəti və erməni terrorizminin Azərbaycan torpaqlarında törətdiyi fəsadlar sənədlər, xəritələr və faktlar əsasında təqdim olunur. Burada "Xocalı - qədim sivilizasiyanın izləri", "Xocalı soyqırımı bəşəriyyətə qarşı cinayətdir", "Xocalını unutma!" adlı ekspozisiyalarda Xocalının tarixi, işğalın coğrafiyası, münaqişənin xronologiyası, beynəlxalq hüquq normalarının pozulması, bəşəriyyətə qarşı törədilmiş ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımı barədə məlumatlar və Ümummilli Lider Heydər Əliyevin soyqırımına verdiyi siyasi-hüquqi qiymət nümayiş olunur.

Ekspozisiya zalındakı Xocalı maketində faciə günü yaşanan dəhşətlərə dair məlumatlar interaktiv formada təqdim olunur.

İkinci ekspozisiya zalında Sərxan Hacıyevin "Bir gecənin içində səssiz qalan evlər" instalyasiyası və faciə zamanı tamamilə məhv edilmiş 8 ailənin taleyi, insanlıq əleyhinə yönəlmiş cinayət nəticəsində bir gecədə yarımçıq qalan həyatlar, arzular, sükuta qərq olan uşaq gülüşləri süni intellektlə hazırlanan video vasitəsilə təqdim edilir.

Ekspozisiya zalında Prezident İlham Əliyevin Xocalı həqiqətlərinin beynəlxalq səviyyədə tanıdılması üzrə apardığı ardıcıl siyasət, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə Fondun Xocalı soyqırımı qurbanlarının xatirəsinin yaşadılması və ədalətin bərqərar olması istiqamətindəki fəaliyyəti, müxtəlif dillərdə hazırlanan nəşrlər və informasiya materialları, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başladılan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində görülən işlər və onun fəal iştirakı ilə bu sahədə həyata keçirilmiş tədbirlər əks etdirilir.

"Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində soyqırımı qurbanlarının xatirəsinə bir sıra ölkələrdə ucaldılmış abidələrin maketləri də burada sərgilənir.

Ekspozisiya 44 günlük Vətən müharibəsinə və dövlət suverenliyinin bərpasına dair məlumatlar, "Böyük Qayıdış" və "Viran edilən Xocalı yenidən dirçələcək" ideyası ilə tamamlanır.

Memorialın növbəti bölməsində rəsmi tədbirlərin və anım mərasimlərinin keçirilməsi üçün nəzərdə tutulan akt zalı var.

Xocalı Soyqırımı Memorialı memarlıq və ideya baxımından milli yaddaşın qorunmasına xidmət edən məkandır.

Xatırladaq ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistanın hərbi birləşmələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə Xocalıda dəhşətli soyqırımı törədib. Faciə zamanı 613 nəfər qətlə yetirilib. Onların 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri ahıl insan olub. Hərbi təcavüz nəticəsində 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 132 uşaq isə valideynlərindən birini itirib.

İşğaldan azad edilən Xocalıda ucaldılan Memorial soyqırımı qurbanlarının xatirəsini daim yaşadacaq və tarixi həqiqətləri hər bir ziyarətçiyə çatdıracaq.

Bu gün xalqımız XX əsrin ən dəhşətli qırğınlarından biri olan Xocalı soyqırımı qurbanlarının xatirəsini qalib ölkə, qalib xalq kimi yad edir. Xocalı qurbanlarının ruhları bu gün şaddır. Müzəffər Ali Baş Komandanın da dediyi kimi, onların qanı yerdə qalmadı, onların qisası Vətən müharibəsi zamanı döyüş meydanında alındı.

Sonra Prezident İlham Əliyev Memorialın xatirə kitabına ürək sözlərini yazdı.

Daha sonra dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri Memorialla tanış oldular və Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

#### Prezident İlham Əliyevin ÇIXIŞI

- İki il bundan əvvəl Xocalı Soyqırımı Memorial Kompleksinin təməli mənim iştirakımla qoyulmuşdur. Bu gün isə bu Memorial Kompleksin açılışına toplaşmışıq.

Xocalı soyqırımı Ermənistan dövləti tərəfindən, erməni faşistləri tərəfindən azərbaycanlılara qarşı, insanlığa qarşı, bəşəriyyətə qarşı törədilmiş qanlı hərbi cinayətdir. Bunun məsuliyyətini Ermənistan dövləti daşıyır. Bir gecə içində 600-dən çox günahsız mülki şəxs, onlardan 106-sı qadın, 63-ü uşaq erməni faşistləri tərəfindən qəddarcasına qətlə yetirilmişdir, 150 nəfər itkin düşmüş və aydın məsələdir ki, onlar da ermənilər tərəfindən öldürülmüşdür. Onların bəzilərinin işğaldan sonra qalıqları tapıldı və torpağa tapşırıldı.

Azərbaycan xalqı üçün bu, ən böyük faciədir. Bu faciəni dünya ictimaiyyətinə çatdırmaq üçün, bizim haqq işimizi dünya birliyinə təqdim etmək üçün həm Azərbaycan dövləti, həm ictimai təşkilatlar, qeyri-hökumət təşkilatları, demək olar ki, bir çox qurumlar fəal çalışıblar. Burada xüsusilə Heydər Əliyev Fondunun fəaliyyətini qeyd etmək istərdim. Fond yarandıqdan dərhal sonra "Xocalıya ədalət!" genişmiqyaslı hərəkatına start verdi. Bu təşəbbüsü Fondun vitse-prezidenti Leyla Əliyeva həyata keçirirdi. Son 20 il ərzində onun təşəbbüsü ilə dünyanın bir çox ölkələrində bir çox tədbirlər, təqdimatlar, simpoziumlar, konfranslar keçirilmişdir, bir çox kitablar, broşürlər, bukletlər dərc edilmişdir. Çünki Ermənistan dövləti, dünya erməniliyi və dünya erməniliyinin, Ermənistan dövlətinin arxasında duran dövlətlər bu qanlı faciəni ört-basdır etməyə çalışırdılar. Hətta erməni təbliğatçıları Azərbaycanı bu faciədə günahlandırmağa çalışırdılar. Əgər biz öz haqq səsimizi ucaltmasaydıq, bu gün bəlkə də dünyada Xocalı soyqırımı ilə bağlı həqiqətə uyğun məlumat olmayacaqdı. Məhz bizim təkidli səylərimiz nəticəsində artıq 20-yə yaxın ölkə Xocalı soyqırımını soyqırımı kimi rəsmən tanıyıb və bu proses davam etdirilir.

"Xocalıya ədalət!" hərəkatının təsiri böyük olmuşdur. Yenə də deyirəm, biz ədalət tələb edirdik. Ancaq əfsuslar olsun ki, beynəlxalq təşkilatlar, dünyanın aparıcı ölkələri bizim bu faciəmizə biganə yanaşırdılar. Yenə də bildirmək istəyirəm, Ermənistan dövlətinin törətdiyi bu qanlı cinayəti ört-basdır etməyə çalışırdılar. Biz isə ədalətə addım-addım irəliləyirdik. 20-yə yaxın ölkənin Xocalı soyqırımını rəsmən tanıması bir addım idi, Vətən müharibəsi və şanlı Zəfərimiz ikinci addım idi, Xocalı şəhərinin iki il yarım bundan əvvəl azad edilməsi isə son addımlardan biri idi. Nəhayət, axırıncı addım bu yaxınlarda hərbi cinayətkarlara qarşı Bakıda keçirilmiş məhkəmə prosesi idi. Xocalı soyqırımını törətmiş, əli Azərbaycan xalqının qanına batmış quldurlar məhkəmə qarşısında cavab verməli oldular.

Vətən müharibəsi və antiterror əməliyyatı nəticəsində hərbi cinayətkarların bir hissəsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən məhv edilmişdir, bir hissəsi, xüsusilə separatçıların liderləri sayılan ünsürlər isə müxtəlif dövrlərdə saxlanılmış və məhkəmə qarşısına gətirilmişdir. Bax bu, ədalətin tam təntənəsidir. Ədaləti biz özümüz təmin etdik, xalqımız bir yumruq kimi birləşərək həm 2020-ci, həm 2023-cü illərdə böyük qəhrəmanlıq göstərmişdir. Biz ədaləti Silahlı Qüvvələrimizin peşəkarlığı, fədakarlığı, rəşadəti hesabına özümüz təmin etdik. Əlbəttə ki, hərbi cinayətkarları ədalət məhkəməsinə gətirmək və ədalətli məhkəməni təşkil etmək, yenə də deyirəm, bizim ədalətimizin son nöqtəsi idi.

Dünyada nadir halda ölkələr tapılar ki, həm ədalətli müharibədə tam və mütləq qələbə qazansın, həm öz ərazi bütövlüyünü və suverenliyini hər qarış torpağı azad edərək özü təmin etsin və müharibə cinayətkarlarını məhkəmə qarşısına gətirsin. Bunu biz etdik - Azərbaycan dövləti. Bizim iradəmiz, deyə bilərəm ki, əyilməz iradəmiz bunu təmin etdi. İşğal dövründə bizə nə qədər təzyiqlər olub, təhdidlər olub, bunu Azərbaycan ictimaiyyəti yaxşı bilir. İşğal dövründə bizə tez-tez belə siqnallar ünvanlanırdı ki, reallıqla barışmaq lazımdır, Azərbaycan öz torpaqlarını azad edə bilməyəcək, böyük dövlətlər, Ermənistanın havadarları buna imkan verməyəcək, Azərbaycan Ordusu döyüş meydanında qələbə qazana bilməyəcək. Bu kimi uydurulmuş şayiələr həm geniş informasiya məkanında yayılır, həm də müxtəlif kanallar vasitəsilə Azərbaycan rəhbərliyinə çatdırılırdı. Amma bizim iradəmizə təsir edə biləcək heç bir qüvvə yox idi və bunu biz dəfələrlə bəyan etmişdik. İşğal dövründə həm mötəbər beynəlxalq kürsülərdən, eyni zamanda, ovaxtkı köçkünlərlə keçirdiyim çoxsaylı görüşlər əsnasında bildirirdim ki, biz işğalla barışmayacağıq və məsələ danışıqlar yolu ilə həll olunmazsa, ərazi bütövlüyümüzü hərbi yolla bərpa edəcəyik və belə də oldu.

Birinci dəfə Prezident vəzifəsinə seçiləndən sonra andiçmə mərasimindəki çıxışımda da bildirmişdim ki, bu, bizim üçün əsas məsələdir və ərazi bütövlüyümüz tam bərpa edilməlidir. Hazırlıq dövrü çox çəkdi, bu da təbiidir. Çünki güc yığmalı idik, güc toplamalı idik. Öz haqq işimizi beynəlxalq müstəvidə təsdiqləməli idik, o cümlədən Ermənistan dövlətinin hərbi cinayətləri haqqında məlumatı çatdırmalı idik. Xocalı soyqırımı ilə bağlı həqiqətləri çatdırmalı idik və çatdırmışıq. Son illər ərzində bir çox beynəlxalq təşkilatlar məcburiyyət qarşısında bizim mövqeyimizi, ədalətli mövqeyimizi dəstəkləyən qərar və qətnamələr qəbul etmişdir. Bu, Ermənistan-Azərbaycan münaqişəsinin hüquqi əsasını təşkil etmişdir. Biz bir çox ölkələrlə sıx ikitərəfli münasibətlər, bir çox ölkələrlə strateji tərəfdaşlıq münasibətləri qurduq. Bu da beynəlxalq müstəvidə Azərbaycan həqiqətlərini, Qarabağ münaqişəsi həqiqətlərini çatdırmaq üçün imkan yaratmışdır. Heç kimdən asılı olmayan güclü iqtisadiyyat qurduq. Güclü ordu qurduq - həm Ordumuzun peşəkarlı-

**davamı 3-cü səhifədə**

# Ədalətin təntənəsi!





əvvəli 2-ci səhifədə

ğını artırdıq, eyni zamanda, əldə edilən gəlirlər hesabına silah-sursat, texnika aldıq. Yəni hər gün, hər ay biz Qələbəyə doğru addımlayırdıq və mən bunu işğal dövründə dəfələrlə demişdim ki, hər gün biz Qələbəni yaxınlaşdırmalı idik və yaxınlaşdırdıq. Cəmi 44 gün ərzində düşməni məğlubiyyətə uğratdıq, düşmən təslim oldu, kapitulyasiya aktına imza atdı və biz müharibəni dayandırdıq. Bu gün son iki il yarımlıq tarix göstərir ki, bu, nə qədər düzgün və düşünülmüş addım idi. Düzdür, o vaxt Xocalı, Xankəndi və bəzi digər yaşayış məntəqələri işğaldan azad edilməmişdi, ancaq mən bilirdim və əminəm, Azərbaycan xalqı bilirdi ki, o gün uzaqda deyil. 2023-cü ildə cəmi bir neçə saat davam edən antiterror əməliyyatı nəticəsində qanunsuz xunta rejimi məhv edildi, işğalçılar torpaqlarımızdan qovuldu, torpaqlarımızda qanunsuz məskunlaşmış 15 minlik erməni ordusu tərk-silah edildi və təslim oldu. Bu da erməni separatçılığına, onların tabutuna vurulmuş son mismar idi. Xocalıya ədalət məhz o vaxt təmin edildi.

Bu gün bu Memorial Kompleksin açılışı, məhz Xocalıda açılışı ədalətin təntənəsidir. Çünki mən bunu iki il bundan əvvəl təməlqoyma mərasimində demişdim. Xocalılılarla birlikdə bu kompleksin təməlini qoyduq. O vaxt demişdim ki, Heydər Əliyev Fondu tərəfindən bu layihə çoxdan hazır idi, bax necə var, necə tikilib, elə də nəzərdə tutulmuşdu, Bakıda yer də seçilmişdi və artıq mənim son qərarım lazım idi ki, biz bunun inşasına başlayaq. Məni hər dəfə nə isə bundan çəkindirirdi. Sonra başa düşdüm o nə idi. O da inam idi ki, gün gələcək və bu Memorial Kompleksi biz Xocalıda quracağıq və belə də oldu. Bu Kompleks silinməz yaddaşımızın təcəssümü olacaq. Biz Xocalı soyqırımını heç vaxt unutmamalıyıq. Ermənistan dövlətinin vəhşiliklərini heç vaxt unutmamalıyıq. Öz tariximizi heç vaxt unutmamalıyıq, ayıq olmalıyıq, həmişə güclü olmalıyıq, həmişə düşmən bizdən qorxmalıdır, necə ki, bu gün qorxur. Məhz bu qorxu nəticəsində bu gün Azərbaycan xalqı sülh içində yaşayır.

Əfsuslar olsun ki, Vətən müharibəsi Ermənistan dövlətinə dərs olmadı. Halbuki 2020-ci ilin Zəfərindən sonra dəfələrlə müxtəlif yollarla Ermənistan rəhbərliyinə biz öz mövqeyimizi çatdırmışdıq - heç kimə güvənməsin, heç kimə bel bağlamasın. Xarici ölkələrin hərbçiləri bizim torpağımızda bizim icazəmizlə müvəqqəti olaraq yerləşiblər. Əgər kimsə hesab edir ki, bu bizi nədənsə çəkindirəcək, səhv edir. Dəfələrlə Ermənistan tərəfinə xəbər göndərmişdik ki, separatçılığa son qoyulsun, qanunsuz xunta rejimi fəaliyyətini dayandırsın, Qarabağ torpağında yaşayan ermənilər Azərbaycan vətəndaşlığını qəbul etsinlər. Bunu dəfələrlə bildirmişdik. Hətta internet vasitəsilə reinteqrasiya proqramını təqdim etmişik, amma biz adekvat cavab almamışıq. Əksinə, separatçılar və onların arxasında duran qüvvələr daha da azğınlaşmışdı. 2020-ci ilin Zəfərindən 2023-cü ilin antiterror əməliyyatına qədər buraya dəfələrlə xarici dövlətlərin nümayəndələri qanunsuz gəlmişdilər. Bugünkü mərasimdə o ölkələrin heç adlarını çəkmək istəmirəm. Separatçılara ürək-dirək vermək üçün, onları bizə qarşı yenə də təhrik etmək üçün, Azərbaycan dövlətini, dövlətçiliyini saymamaq üçün tövsiyələr verilirdi, silahlar göndərilirdi, minalar göndərilirdi. Hesab edirdilər ki, xarici dövlətin burada məskunlaşan kontingenti bizi nədənsə çəkindirəcək. Bizi heç nədən çəkindirə bilməzdi və bir neçə saat ərzində davam edən antiterror əməliyyatı bunu bütün dünyaya göstərdi. Bizim iradəmizə qarşı çıxanın başı əziləcək.

Bu gün bu Memorial Kompleksin açılışında Xocalı sakinləri iştirak edir. Onların demək olar ki, hər biri öz yaxınlarını, qohumlarını, doğmalarını itirmişlər, uzun illər ərzində bu ağrı ilə, bu kədərlə yaşamışlar. Öz yaxınlarını itirən, öz torpağını itirən, öz doğma diyarından didərgin salınan insanlarda gör nə qədər iradə olmalı idi ki, bütün bunlara dözə bilsinlər və dözdülər də. Çünki onları saxlayan inam idi, ədalətə inam, dövlətə inam, Ordumuza inam.

Bu gün bu Memorial Kompleksin timsalında biz Azərbaycan xalqının əyilməz ruhunu görürük. Çünki bu qədər, - yəni Xocalı soyqırımı XX əsrin ən qanlı cinayətlərindən biri idi və xalqımız buna məruz qalmışdı, - 30 il ərzində ədalətsizliklə üzləşən xalqımız öz mənliyini saxladı, ləyaqətini saxladı, inamını saxladı. Biz bu Memorial Kompleksin açılışında iştirak edərkən bir daha deyirik ki, bu gün Azərbaycan dövləti o qədər güclüdür ki, heç kimin ağlına bizə qarşı hər hansı bir təxribat törətmək gəlməsin. Artıq Azərbaycan 1992-ci ilin Azərbaycanı deyil. Bu gün dövlətimiz güclü dövlətdir, özünü müdafiə etməyə qadir olan dövlətdir. Son 80 il ərzində bizim qədər tam və mütləq qələbə qazanmış ikinci dövlət olmamışdır dünyada. Bu gün biz sülh içində yaşayırıq və bunun təminatçısı Azərbaycan dövlətidir, bizim siyasətimizdir.

Mən hələ Vətən müharibəsi dövründə bizim şəhərlərimiz, kəndlərimiz Ermənistan dövləti tərəfindən bombalananda demişdim ki, biz azərbaycanlıyıq, biz müharibəni də müharibənin qaydaları əsasında aparırıq və aparacağıq. Ermənilərdən fərqli olaraq günahsız, əliyalın mülki əhaliyə qarşı heç vaxt müharibə aparmamışıq və bu, bizim xalqımızı daha da ucaltdı. Bu gün xalqımıza, dövlətimizə olan hörmət, o cümlədən məhz buna görədir. O vaxt mən demişdim ki, biz qisasımızı döyüş meydanında alacağıq, aldıq da. Bütün şəhidlərin qisası alındı və bütün şəhidlərin doğmaları, yaxınları üçün bu, müəyyən təsəllidir. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Biz onların xatirəsini qəlbimizdə əbədi yaşadacağıq. Biz heç vaxt nə Xocalı soyqırımını, nə Ermənistan dövlətinin bizə qarşı törətdiyi başqa hərbi cinayətləri unutmayacağıq. Hər zaman güclü olmalıyıq və olacağıq ki, belə faciələr bir daha təkrarlanmasın.

X X X

Sonra çıxışlar oldu və xatirə şəkilləri çəkdirildi.

# Ankaraya zəng



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib. Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğanı ad günü münasibətilə təbrik edib, ona uzun ömür, cansağlığı və gələcək fəaliyyətində uğurlar arzulayıb.

Türkiyə Prezidenti göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib.

Telefon danışığı əsnasında dövlət başçıları gələcək təmaslara dair fikir mübadiləsi aparıblar.

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Xocalı soyqırımı abidəsini ziyarət ediblər






**Fevralın 26-da Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri faciə qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəni ziyarət ediblər. Abidənin önünə əklil və gül dəstələri qoyulub, soyqırımı qurbanlarının əziz xatirəsi ehtiramla yad olunub.**

# Dünya ölkələri və beynəlxalq təşkilatlar Xocalı soyqırımının qurbanlarını anıblar

منظمة التعاون الإسلامي
Organisation of Islamic Cooperation

*Nardar BAYRAMLI*

Fevralın 26-da Xocalı soyqırımının 34-cü ildönümü tamam oldu. Bununla əlaqədar müxtəlif beynəlxalq təşkilatlar, ölkəmizdəki səfirliklər Azərbaycan xalqına başsağlığı veriblər.

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibliyinin Xocalı soyqırımının 34-cü ildönümü ilə bağlı bəyanatında 1992-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində törədilən soyqırımının 34-cü ildönümü ilə bağlı İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Hissein Brahim Tahanın həlak olanların xatirəsini ehtiramla yad etdiyi bildirilir. Baş katib Xocalı hadisəsinin Ermənistan tərəfindən Azərbaycan ərazilərinin qanunsuz işğalının nəticəsi olduğunu bir daha vurğulayıb. O, 2013-cü ildə Qahirədə keçirilmiş İslam Zirvə Toplantısının 12-ci sessiyasında qəbul edilmiş Qahirə Yekun Bəyannaməsinə (117-ci bənd) və 2025-ci ildə Türkiyə Respublikasının İstanbul şəhərində keçirilmiş İƏT Xarici İşlər Nazirləri Şurasının 51-ci sessiyasında qəbul edilmiş "1992-ci il Xocalı qırğınının qurbanları ilə həmrəylik haqqında" 46/51-POL saylı Qətnaməyə istinad edib, işğal olunmuş Xocalı şəhərində mülki azərbaycanlı əhaliyə qarşı törədilmiş kütləvi vəhşilikləri müharibə cinayəti, insanlıq əleyhinə cinayət və soyqırımı kimi qiymətləndirib.

BMT-nin Azərbaycandakı Missiyası da Xocalı soyqırımının 34-cü ildönümü münasibətilə paylaşım edib. Bu barədə qurumun "X" sosial şəbəkəsindəki rəsmi səhifəsində bildirilib: "Xocalı faciəsinin qurbanlarının xatirəsini dərin hörmətlə yad edirik. Belə faciələrin bir daha təkrarlanmaması üçün bütün səylər göstərilməlidir. Davamlı sülh yalnız dialoq və barışma yolu ilə əldə edilə bilər".

Avropa İttifaqının (Aİ) Azərbaycandakı Nümayəndəliyi də Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edib. Aİ-nin Azərbaycandakı səfiri Mariyana Kuyundziçin "X" sosial şəbəkəsində "Aİ-nin Azərbaycandakı Nümayəndəliyi Xocalı faciəsi zamanı həlak olmuş günahsız qurbanların - qadınların, kişilərin, uşaqların və yaşlıların xatirəsini yad edir. Nümayəndəlik qəlbdən başsağlığı verir, barışığın və dayanıqlı sülhün bərqərar




olunmasının vacibliyini vurğulayır", - yazıb.

Qardaş Türkiyənin Xarici İşlər Nazirliyi Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar başsağlığı mesajı yayımlayıb. Mesaj günün xatirəsinə xüsusi hazırlanan tanıtım fotosu ilə paylaşılıb. Paylaşımda bildirilib: "1992-ci il fevralın 26-da Xocalıda qətlə yetirilən azərbaycanlı qardaşlarımızın əziz xatirəsini hörmət və ehtiramla anır, Can Azərbaycanın ağrısını daim qəlbimizdə hiss edirik".

Pakistanın ölkəmizdəki səfiri Qasım Mohiuddin isə İslamabadın Azərbaycan xalqı ilə birlikdə Xocalı faciəsinin qurbanlarının xatirəsini yad etdiyini bəyan edib: "Bu gün biz qardaş Azərbaycan xalqı ilə birlikdə Xocalı soyqırımının bütün günahsız qurbanlarının xatirəsini ehtiramla anırıq".

İsrailin ölkəmizdəki səfirliyi də Xocalı faciəsinin 34-cü ildönümü ilə əlaqədar Azərbaycan xalqına başsağlığı verib: "Səfirlik adından Azərbaycan xalqına və Xocalı faciəsi qurbanlarının ailələrinə dərin hüznlə başsağlığı veririk. Həyatını itirən günahsız insanların xatirəsini ehtiramla yad edir və zərər çəkmiş hər kəsə ən dərin rəğbətimizi bildiririk. Qurbanların xatirəsi daim yaşasın və sülh ilə qarşılıqlı anlaşma qalib gəlsin".

ABŞ-ın Azərbaycandakı səfirliyinin sosial media paylaşımında isə bildirilir: "Bu gün biz 1992-ci ildə Xocalıda həlak olanların xatirəsini dərin ehtiramla yad edən Azərbaycan xalqına qoşuluruq. ABŞ səfirliyi adından həlak olanların ailələrinə və yaxınlarına ən səmimi və dərin hüznlə başsağlığı veririk. Qurbanların xatirəsini anarkən insan ləyaqətinin qorunmasının, mərhəmətin və gələcək nəsillər naminə davamlı sülhün qurulmasının vacibliyini bir daha xatırlayırıq".

İtaliyanın Bakıdakı səfirliyi də Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar başsağlığı verib: "1992-ci il Xocalı faciəsi qurbanlarının xatirəsini yad edərək hüznünüzü bölüşürük".

Bundan əlavə, Xorvatiya, Fransa və Slovakiyanın ölkəmizdəki səfirlikləri Xocalı faciəsinin 34-cü ildönümü ilə əlaqədar paylaşım edib. Bu barədə diplomatik missiyaların sosial şəbəkələrdəki hesabında bildirilib.

Fransa səfirliyinin paylaşımında qeyd olunub: "Bu gün biz Azərbaycan xalqı ilə birlikdə Xocalı qurbanlarının xatirəsini yad edirik".

Xorvatiyanın səfirliyinin paylaşımında bildirilib: "Bu gün biz dərin kədər hissi ilə Xocalı soyqırımı qurbanlarını xatırlayırıq və o faciəli gecədə yaxınlarını itirənlərə başsağlığı veririk".

Slovakiyanın Bakıdakı səfirliyi də Xocalı faciəsinin 34-cü ildönümü ilə əlaqədar




Azərbaycan xalqına başsağlığı verib.

Almaniyanın, Yaponiyanın və Niderlandın Azərbaycandakı səfirlikləri faciə ilə bağlı sosial media hesablarında ediblər. Belə ki, Almaniya səfirliyinin paylaşımında qeyd edilib: "Biz 34 il əvvəl Xocalıda həlak olanların xatirəsini hörmətlə yad edirik". Yaponiya səfirliyindən bildirilib: "Bu gün Xocalı faciəsinin 34-cü ildönümü ilə əlaqədar qurbanların xatirəsini yad edirik. Yaponiya hökuməti bütün soyqırımlara qarşı çıxır!".

Niderland səfirliyinin paylaşımında isə qeyd olunub: "Bu gün biz Azərbaycan xalqı ilə birlikdə 1992-ci ildə Xocalıda həlak olan bütün insanların xatirəsini anırıq".

# Biznesin inkişafı sahəsində optimallaşdırma

## Yeni agentliyin yaradılması mikro, kiçik və orta biznesin inkişafı, investisiyaların və ixracın təşviqi sahəsində idarəetməni təkmilləşdirəcək



Prezident İlham Əliyevin imzaladığı "Mikro, kiçik və orta biznesin inkişafı, investisiyaların və ixracın təşviqi sahəsində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" fərmana əsasən, İqtisadiyyat Nazirliyinin tabeliyindəki "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi" və "Azərbaycan Respublikası İnvestisiyaların və İxracın Təşviqi Agentliyinin ("AZPROMO") bazası əsasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyi yaradılıb. Agentlik mikro, kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi, qeyri-neft sektoru üzrə investisiyaların və ixracın təşviqi, sahibkarlıq subyektlərinin maraqlarının qorunması və sahibkarların bu sahədə xidmətlərini əlaqələndirən struktur kimi fəaliyyət göstərəcək.

Agentliyin işçilərinin say həddi cəmi 370 ştat vahidi, o cümlədən onun Aparatının işçilərinin say həddi 291 ştat vahidi, regional bölmələrinin işçilərinin say həddi 79 ştat vahidi müəyyən edilib. Yeni struktur mikro, kiçik və orta sahibkarlıq subyektlərinə, ixracatçılara və investorlara dövlət orqanları tərəfindən göstərilən xidmətlərin mərhələli şəkildə özəl sektor subyektləri tərəfindən həyata keçirilməsi mexanizmləri, qeyri-neft sektoru üzrə investisiyaların və ixracın təşviqi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində dövlət siyasətini həyata keçirəcək.

### Sahibkarlıq sahəsində islahatların növbəti mərhələsi

Yeni agentliyin yaradılması ölkə iqtisadiyyatında biznesin inkişafı sahəsində optimallaşdırma tədbirlərinin gücləndirilməsi istiqamətində mühüm bir addım kimi qiymətləndirilə bilər. Yeni dövlət qurumunun yaradılması islahatların daha da dərinləşməsinə institutsional dəstək verir və bu sahədə beynəlxalq təcrübəyə uyğundur. Yeni qurum, kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi, qeyri-neft sektoruna investisiyaların cəlbinin və milli istehsalın ixracının təşviqi, biznes xidmətlərinin daha vahid şəkildə əlaqələndirilməsi baxımından struktur islahatlarının növbəti mərhələsi kimi səciyyələndirilə bilər. Eyni zamanda, sahibkarların milli maraqlarının müdafiəsi və bu sahədə dövlət dəstəyinin artırılması, ölkədə rəqabətli biznes mühitinin formalaşması baxımından da əhəmiyyətli sayıla bilər.

Ötən illərdə aparılan islahatların nəticələri də təsdiqləyir ki, müxtəlif iqtisadi, sosial, əmək, maliyyə, büdcə, vergi və s. sahələrdə aparılan islahatlar biznesə və vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və elektron xidmətlərə keçidin sürətləndirilməsi baxımından əhəmiyyətli dönüş yaradıb. İslahatlar dövlət aparatı sisteminin funksionallığı baxımından müəyyən dərəcədə yüngülləşməsinə, bir-birini təkrarlayan dövlət qurumlarının bir qisminin ləğvi və ya birləşdirilməsi yolu ilə daha modern, çevik dövlət qurumları ilə əvəzlənməsinə səbəb olmaqla, iqtisadi siyasətə yeni nəfəs gətirib.

### İslahatlar nəyi dəyişəcək?

**İslahatlar səmərəliliyi, çevikliyi və şəffaflığı təmin edən genişmiqyaslı prosesin davamıdır. Müasir inkişaf kursunun prinsiplərinə uyğun olaraq aparılan islahatlar sosial-iqtisadi inkişaf prioritetlərinə çatmaq üçün də mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, iqtisadi idarəetmə sisteminin təkmilləşdirilməsi ilə bağlı strateji hədəflərə, o cümlədən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər və 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na əsaslanır**

Azərbaycan iqtisadiyyatı hazırda yeni mərhələyə qədəm qoyub. İqtisadiyyatın dinamik inkişafı, qeyri-neft sektorunun və ixrac qabiliyyətinin yüksəlməsi, iqtisadiyyatda yeni yanaşmalara əsaslanan müasir innovativ modellərin geniş tətbiqi və ölkəmizin qlobal bazarlara inteqrasiyasının daha da dərinləşməsi və rəqabət qabiliyyətinin artması, eləcə də digər meyillər dövlət idarəçiliyinin strukturunun təkmilləşdirilməsini mühüm tələb kimi qarşıya qoyub. Müasir iqtisadi sistem dövlət aparatının bir çox sahələrinin hazırkı dinamik və hərtərəfli inkişaf tempinin tələblərinə uyğunlaşdırılmasını, göstərilən dövlət xidmətlərinin keyfiyyət göstəricilərinin daha da yaxşılaşdırılmasını, səmərəliliyin və çevikliyin təmin edilməsini, ən mütərəqqi qabaqcıl təcrübə və texnologiyaların idarəetmədə geniş tətbiqini zəruri edir.

Məhz bu nöqteyi-nəzərdən islahatlar səmərəliliyi, çevikliyi və şəffaflığı təmin edən genişmiqyaslı prosesin davamıdır. Müasir inkişaf kursunun prinsiplərinə uyğun olaraq aparılan islahatlar sosial-iqtisadi inkişaf prioritetlərinə çatmaq üçün də mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, iqtisadi idarəetmə sisteminin təkmilləşdirilməsi ilə bağlı strateji hədəflərə, o cümlədən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər və 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na əsaslanır.

Aparılan struktur dəyişiklikləri dövlət idarəetmə sistemində səmərəliliyin artırılması, verilən qərarların icrasının dinamikliyinin, dövlət xidmətlərinin ünvanlılığının və asanlılığının, ayrılan maliyyə vəsaitlərinin hesabatlılığının təmin edilməsi və xərclərin rasionallaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

İslahatlar dövlət büdcəsindən maliyyələşən təşkilatların baxışını, büdcəyə yanaşmasını da dəyişdirəcək. Həmin qurumlar bundan sonra başqa prinsiplər əsasında fəaliyyət göstərməyə məcbur olacaq. Bu baxımdan yeni struktur islahatları büdcə vəsaitlərindən səmərəli istifadəni təmin edəcək.

Ümumiyyətlə, yeni publik hüquqi şəxs qismində agentliklərin və digər qurumlarının yaradılması, bəzi nazirlik və komitələrin, dövlət şirkətlərinin tabeliyindəki strukturların birləşdirilməsi funksional idarəçiliyin tələbləri olmaqla, son illərdə aparılan səmərəli islahatların mühüm nəticəsi hesab edilməlidir.

Beləliklə, mövcud institusional islahatların aparılması və sahibkarlıq sahəsində yeni qurumun yaradılması Azərbaycanın iqtisadiyyatında biznes mühitinin daha da əlverişli hala gətirilməsi üçün atılan vacib addımlardan biridir.

*E.CƏFƏRLİ*

# Sülh prosesində tam liderlik...

## Bütün təşəbbüslər Azərbaycan tərəfindən verilib

Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması Cənubi Qafqazın həyatında yeni - sabit və inkişafa yönəlik dövrün başlama perspektivini formalaşdırır. Sülh prosesi yeni iqtisadi-siyasi nizamın mühüm ştrixlərindən birinə çevrilə bilər - məhz imzalanacaq sülh Cənubi Qafqazın yeni dönəmdə stabil və sabit məkan kimi inkişafına yol açacaq, ümumən bölgənin qlobal layihələrdəki iştirakını daha da irəliyə daşıyacaq. Bir sözlə, Azərbaycanın təşəbbüskarı və müəllifi olduğu, Bakının diqtəsi ilə həyata keçən sülh layihəsinin prioritet istiqamətləri bütövlükdə Cənubi Qafqaz üçün inkişaf tempi perspektivi vəd edir.

Nəticə isə uzaqda deyil - ötən ilin avqustunda Vaşinqtonda sülh sazişinin paraflanması, ATƏT-in Minsk qrupunun ləğvi, Ermənistana Azərbaycanın neft məhsullarının ixracına başlanılması, eləcə də bu ölkəyə daşımalara icazənin verilməsi prosesin mühüm bir yol qət etdiyini deməyə əsas verir. Nəticə etibarı ilə, Ermənistan tərəfi də artıq sülh anonsları səsləndirir - bu, rəsmi İrəvanın artıq Azərbaycanın regionda yaratdığı yeni siyasi-iqtisadi reallıqları qəbul etməsi kimi dəyərləndirilə bilər. Görünən budur ki, İrəvan yaranan siyasi-iqtisadi reallıqların sülhü və əməkdaşlığı aktuallaşdırdığını anlayır - belə bir iqtisadi platforma isə indiki zamanda Ermənistan üçün hava-su kimi lazımlıdır. Sosial problemlərin əsirinə çevrilmiş bu ölkə Azərbaycanın ona yaratdığı imkandan maksimum bəhrələnməli, özünün yeni inkişaf mərhələsini formalaşdırmalıdır. Bunun üçün isə sülhün həm əbədi, həm də dayanıqlı olması üçün son addımlar atılmalıdır.

### Azərbaycanın formalaşdırdığı sülh gündəliyi

Yeri gəlmişkən, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərə açıqlamasında bildirib ki, bu gün Azərbaycan inkişaf edir və sülh istiqamətində ciddi addımlar atır, artıq böyük nəticələr göz önündədir. Nazir qeyd edib ki, ölkə öz hüquqlarını və ərazi bütövlüyünü bərpa edərkən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı və ordusu qətiyyətli mövqe nümayiş etdirib. Onun sözlərinə görə, post münaqişə dövründə də sülh gündəliyinin formalaşdırılması və irəli aparılması istiqamətində əsas təşəbbüslər məhz Azərbaycan tərəfindən irəli sürülüb: "Bütün dünya gördü ki, sülh prosesində həm liderlik və bütün təşəbbüslər yenə də Azərbaycan tərəfindən edilib. Bu istiqamətdə ciddi addımlar atılır, böyük nəticələr göz önündədir".

### Bakı Cənubi Qafqaz üçün yeni bir gələcək qurur

Vurğulandığı kimi, qalib dövlət olan Azərbaycanın son 4 ildə təşəbbüskarı olduğu sülh prosesi bu gün geocoğrafiyamız üçün mühüm bir mərhələnin əsasını qoyub. Bakı revanşist ritorikadan çıxış etməyərək Ermənistanla münasibətlərin normallaşdırılması üçün konkret strateji yol xəritəsi təqdim etdi - 2022-ci ildən etibarən aparılan sülh gündəliyi beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır və region üçün uzunmüddətli təhlükəsizlik arxitekturası formalaşdırmağa yönəlib. Bunun nəticəsidir ki, artıq regionumuz yeni dövrdə həm siyasi, həm iqtisadi cəhətdən ən stabil gələcək vəd edən regionlardan biri kimi xarakterizə olunur. Bu gün dünyanın əsas iqtisadi meyarları sayılan iqtisadi inkişaf və qlobal layihələrin reallaşdırılması üçün əsas şərt sabitlik və təhlükəsizlikdir. Tarix göstərir ki, davamlı investisiya mühiti yalnız siyasi risklərin minimuma endirildiyi məkanlarda formalaşır. Azərbaycan məhz bu reallığı nəzərə alaraq post müharibə dövründə sülh gündəliyini prioritet elan edib - bütövlükdə bölgə üçün həm sülh təşəbbüsləri, həm də iqtisadi maraqlar bir-birini tamamlayır. Azərbaycanın liderliyi ilə ortaya çıxan sülh prosesi modeli təhlükəsizlik və hüquqi baza formalaşdırır, iqtisadi inteqrasiyanı dərinləşdirir.

Bu model təkcə region üçün deyil, qlobal miqyasda da müsbət presedent kimi qiymətləndirilir. Bunun nəticəsidir ki, ötən ilin avqustunda Vaşinqtonda baş tutan Sülh Zirvəsi prosesin yeni mərhələyə qədəm qoymasının şərtləndirib. Bu görüş Bakının təşəbbüsü ilə ortaya çıxan sülh gündəliyinin qlobal təsdiqi, Azərbaycanın siyasi iradəsinin dəstəklənməsi idi. Qeyd olunduğu kimi, sülh sazişi layihəsinin paraflanması tərəflərin prinsipial məsələlərdə yaxınlaşdığını göstərdi. Hazırkı situasiya hətta Ermənistan üçün də yeni imkanlar vəd edir. Regional inteqrasiya, nəqliyyat xətlərinin açılması, Zəngəzur dəhlizinin (TRİPP) reallaşması və iqtisadi əməkdaşlıq platformalarının genişlənməsi Ermənistan iqtisadiyyatında ciddi canlanma yarada bilər. Azərbaycanla ticarət əlaqələrinin qurulması, enerji və neft məhsullarının ixracı reallığı da bu yeni mərhələnin nəticələri kimi qiymətləndirilə bilər. Beləliklə, Vaşinqton Zirvəsi və sonrakı diplomatik addımlar göstərir ki, Bakının əsasını qoyduğu sülh prosesi artıq yeni mərhələyə daxil olub. Bu mərhələnin əsas xüsusiyyəti qarşıdurmadan əməkdaşlığa keçiddir və bu keçidin əsas təşəbbüskarı da məhz Azərbaycandır.



### Konstitusiya dəyişikliyi zərurəti...

Azərbaycanın siyasi iradəsi əsasında indiyə qədər uğurlu yol qət edən sülh prosesinin son nəticəyə qədəm qoyması üçün isə Ermənistan real addımlar atmalıdır. Xüsusilə, Ermənistan Konstitusiyasında Azərbaycan ərazilərinə qarşı iddiaların aradan qaldırılması kimi bir addım zəruri xarakter daşıyır. Əgər tərəflər bir-birinin ərazi bütövlüyünü tanıyırsa, bu prinsip əsas qanunvericilikdə də öz əksini tapmalıdır. Daimi sülh üçün həm də hüquqi baza möhkəm olmalıdır. Konstitusiya dəyişiklikləri, normativ sənədlərin uyğunlaşdırılması və cəmiyyətin sülhə hazırlanması bu prosesin ayrılmaz hissəsidir. Əks halda, imzalanacaq sənəd uzunömürlü olmaya bilər. Bu baxımdan sülh müqaviləsi regionun gələcəyi üçün həlledici sənəd olacaq. O, yalnız iki ölkə arasında münasibətləri tənzimləməyəcək, həm də Cənubi Qafqazın gələcək inkişaf trayektoriyasını müəyyən edəcək. Beləliklə, indi əsas məsələ sülh prosesini hüquqi cəhətdən rəsmiləşdirmək və geridönməz etməkdir. Əgər Ermənistan həqiqətən də ən yaxın zamanda sülh müqaviləsini imzalamaqda maraqlıdırsa, o zaman institusional səviyyədə (parlamentdə və ya Konstitusiya Məhkəməsində) konkret addımlar atmalı, Konstitusiyasında dəyişikliklər etməli, ərazi iddialarını aradan qaldırılmalıdır. Bu addımlar atılarsa, sülh sənədi formal deyil, real təminata çevriləcək.

### Tədbirlərdə iştirak nəzərdə tutulmur...

Qeyd edək ki, jurnalistlərə açıqlamasında Azərbaycanın XİN başçısı Avropa Siyasi Birliyinin Ermənistanda keçiriləcək Sammitində müxtəlif səviyyələrdə təmsilçiliyimizin planlaşdırılmadığını deyib. Nazir bildirib ki, Prezident İlham Əliyevin çox sıx qrafikində və təqvimində may ayı üçün belə bir səfər nəzərdə tutulmayıb.

Paralel olaraq nazir Azərbaycanın Ümumdünya Şəhərsalma Forumuna (WUF13) Ermənistanın dəvət etməsi ilə bağlı hazırda məlumatının olmadığını deyib. Nazir bildirib ki, tədbirin özünün müəyyən edilmiş formatı mövcuddur və iştirakçı ölkələrin dəvət olunması da məhz həmin prosedurlar çərçivəsində həyata keçirilir. "Təbii ki, tədbirin özünün formatı var və həmin format kontekstində hansı ölkələrin dəvət olunması nəzərdə tutulubsa, buna uyğun da prosedur həyata keçiriləcək. Eyni zamanda tədbir çərçivəsində ilk dəfə liderlər sammiti də təşkil olunacaq. Əlbəttə, burada bütün dünya liderləri iştirak etməyəcək. Bu istiqamətdə dəstəyə ehtiyac olan ölkələr dəvət olunub. Ermənistanın WUF13-ə dəvət olunması ilə bağlı məndə məlumat yoxdur", - deyə XİN başçısı qeyd edib.

*P.İSMAYILOV*

# Azərbaycan Xocalı soyqırımını dünyada tanıdır

## Britaniya parlamentində Xocalı soyqırımı ilə bağlı qanunvericilik təşəbbüsünün irəli sürülməsi də görülən sistemli işlərin nəticəsidir

Xocalı soyqırımı təkcə azərbaycanlılara qarşı deyil, bütün bəşəriyyətə qarşı törədilmiş cinayətdir. Ermənilərin törətdiyi bu soyqırımı nəticəsində Xocalı şəhərinin 5379 sakini zorakılıqla qovulub, 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qalıb (onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bugünədək məlum deyil), 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb, 8 ailə tamamilə məhv edildi, 130 uşaq valideynlərindən birini, 25 uşaq isə hər ikisini itirib. 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın və 70 qoca işgəncə verilməklə vəhşicəsinə öldürülüb.

**Böyük Britaniya Parlamentinin İcmalar Palatasının deputatı Bob Blekmen Xocalı soyqırımı ilə bağlı qanunvericilik təşəbbüsü irəli sürüb. Sənəddə 1992-ci ildə Ermənistan silahlı qüvvələrinin, Rusiyanın 366-cı motoatıcı alayının dəstəyi ilə Xocalıda törətdiyi vəhşiliklər xatırladılıb, 613 dinc azərbaycanlının amansızcasına qətlə yetirildiyi, onların arasında 106 qadın, 63 uşaq və 70 yaşlının olduğu vurğulanıb**

### Beynəlxalq sənədlər Xocalı faciəsini soyqırımı kimi təsbit edir

Nəzərə alaq ki, Azərbaycan xalqının XX əsrdə üzləşdiyi dəhşətli Xocalı faciəsi yalnız Holokost soyqırımı kimi insanlıq tarixinə düşmüş qanlı faciə ilə müqayisə oluna bilər. Qeyd edək ki, BMT Baş Məclisinin 1946-cı il 11 dekabr tarixli qətnaməsində də qeyd olunur ki, genosid insan qruplarının yaşamaq hüququnu tanımamaqla insan mənliyini təhqir edir, bəşəriyyəti insanlar tərəfindən yaradılan maddi və mənəvi dayaqlardan məhrum edir. Belə bədnam əməllər BMT-nin məqsəd və vəzifələrinə tam ziddir. “Soyqırımı” anlayışının hüquqi mənası isə BMT Baş Assambleyasının 9 dekabr 1948-ci il tarixli 260 A (III) saylı qətnaməsi ilə qəbul etdiyi “Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalar haqqında” Konvensiya ilə müəyyən edilib və hər hansı milli, etnik, irqi və ya dini qrupların tam və ya qismən məhv edilməsi niyyəti ilə növbəti hərəkətləri bildirir. Konvensiyanın 2-ci bəndində göstərilən şərtlər də Xocalı faciəsinin məhz soyqırımı adlandırılmasına tamamilə imkan yaradır. Konvensiyaya qoşulan dövlətlər sülh, yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq, genosidin beynəlxalq hüquq normalarını pozan cinayət olduğunu təsdiq edərək, onun qarşısının alınması və səbəbkarlarının cəzalandırılması üçün tədbirlər görməyi öhdələrinə götürüblər.

Həmin beynəlxalq sənəddə göstərilir ki, hər hansı milli, etnik, yaxud dini qrupun tam və ya qismən məhv edilməsilə törədilən bir sıra hərəkətlər genosid cinayətinin mahiyyətini təşkil edir. Bu hərəkətlər - həmin qrupun üzvlərinin öldürülməsi, ağır bədən xəsarətinin, onların fiziki məhvinə səbəb olan həyat şəraitinin yaradılması, uşaqların zorla bir insan qrupundan alınıb başqalarına verilməsi törədilmiş cinayətin soyqırımı kimi tövsif edilməsinə əsas verir. Bu hüquqi meyarlardan yanaşdıqda, ermənilərin Xocalıda törətdikləri dəhşətli cinayətlərin genosid olduğuna heç bir şübhə qalmır.

2020-ci ildə Prezident, Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti, güclü Azərbaycan Ordusunun rəşadəti sayəsində 44 günlük Vətən müharibəsində tarixi ədalət bərqərar olub, 2023-cü ilin sentyabrında birgünlük antiterror tədbirləri nəticəsində isə ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilib, Xocalı şəhəri separatçılardan təmizlənib. 2023-cü il oktyabrın 15-də Prezident İlham Əliyev Xocalı şəhərində Azərbaycanın Dövlət Bayrağını ucaldıb.



### Dünya ictimaiyyəti soyqırımı haqqında məlumatlandırılır

Uzun illər Azərbaycan dövləti Xocalı faciəsi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması istiqamətində sistemli iş aparıb. Bunun nəticəsində, bir sıra ölkələrdə soyqırımı ilə bağlı müvafiq sənədlər qəbul edilib. Yeri gəlmişkən, bugünlərdə Böyük Britaniya Parlamentinin İcmalar Palatasının deputatı Bob Blekmen Xocalı soyqırımı ilə bağlı qanunvericilik təşəbbüsü irəli sürüb. Sənəddə 1992-ci ildə Ermənistan silahlı qüvvələrinin, Rusiyanın 366-cı motoatıcı alayının dəstəyi ilə Xocalıda törətdiyi vəhşiliklər xatırladılıb, 613 dinc azərbaycanlının amansızcasına qətlə yetirildiyi, onların arasında 106 qadın, 63 uşaq və 70 yaşlının olduğu vurğulanıb. Xocalı faciəsi Azərbaycan vətəndaşlarına qarşı törədilmiş ağır bir cinayət kimi qiymətləndirilib. Qanunvericilik təşəbbüsündə, həmçinin Ermənistan və Azərbaycan arasında normallaşma və davamlı sülh istiqamətində atılan addımlar alqışlanıb.

Xatırladaq ki, Xocalı soyqırımı bir sıra ölkələrdə qəbul olunan parlament aktları ilə tanınıb. Bu vaxtadək 18 ölkənin - Bosniya və Herseqovina, Kolumbiya, Çex Respublikası, Honduras, İordaniya, Meksika, Pakistan, Panama, Peru, Sudan, Cibuti, Qvatemala, Paraqvay, Sloveniya, Şotlandiya, İndoneziya, Əfqanıstanın, Bolqarıstanın qanunverici orqanları, həmçinin ABŞ-ın 24 ştatı tərəfindən müvafiq parlament qətnamələri qəbul edilib. Eləcə də, 20 noyabr 2012-ci il tarixində Cibutidə keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının 39-cu sessiyasında Xocalıda törədilmiş cinayətləri soyqırımı kimi tanıyan qətnamə qəbul edilib. 2013-cü ilin fevral ayında Qahirədə keçirilən İƏT İslam Zirvə Konfransının 12-ci sessiyasında qəbul olunan Yekun Kommünikedə üzv dövlətlər Xocalı soyqırımının tanınması istiqamətində zəruri səylər göstərməyə çağırılırlar. Hazırda xarici ölkələrdə Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış 10 abidə mövcuddur.

***Nardar BAYRAMLI***

# SOCAR və “Samsung” anlaşdı

## İmzalanmış memoranduma əsasən, neft sənayesində müasir rəqəmsal texnologiyalar tətbiq olunacaq

İqtisadiyyat naziri Mikayıl Cabbarovun “Samsung E&A Co., Ltd.” şirkətinin prezidenti və baş icraçı direktoru Honq Namkunq ilə görüşündə Azərbaycanın iqtisadi prioritetləri, əlverişli biznes və investisiya mühiti barədə fikir mübadiləsi aparılıb. Ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına və qlobal dəyər zəncirlərinə inteqrasiyası baxımından görülən işlər diqqətə çatdırılıb, əməkdaşlıq imkanları qeyd olunub. Görüş çərçivəsində neft sənayesində tətbiq olunan müasir texnologiyalar və rəqəmsallaşma imkanlarına da toxunulub. SOCAR və “Samsung E&A Co., Ltd.” bu istiqamətdə əməkdaşlıq məqsədilə anlaşma memorandumu imzalayıb. Sənəd enerji aktivlərinin səmərəliliyinin artırılması, istehsalın lokallaşdırılması, regional sənaye və təchizat mərkəzinin yaradılması, insan kapitalının inkişafı və karbonsuzlaşma üzrə əməkdaşlıq perspektivlərinin araşdırılmasını nəzərdə tutur, yerli şirkətlərin qlobal dəyər zəncirinə inteqrasiyası baxımından da əhəmiyyət daşıyır.

### Korporativ strategiyadan irəli gələn hədəflər

Memorandum SOCAR-ın rəqəmsal infrastrukturların gücləndirilməsi, innovativ və texnoloji tətbiqlər və müasir idarəetmə hədəflərinə xidmət edən strateji konsepsiyanın mühüm hissəsi hesab edilə bilər. SOCAR-ın 2035-ci ilə kimi təsdiqlənmiş korporativ strategiyasına uyğun olaraq insan kapitalının inkişafı və rəqəmsallaşma istiqamətində növbəti mühüm addım hesab olunur. Azərbaycanın milli neft korporasiyası bu strateji ssenariyə əsaslanaraq son illərdə istehsalın və emalın müasir idarəetmə texnologiyalarına əsaslanan mühüm layihələr icra edir, bu istiqamətdə qlobal investorlarla əməkdaşlığı artırır. Son illərdə beynəlxalq investorlarla və qlobal texnologiya şirkətləri ilə bu istiqamətdə bir neçə saziş və memorandum imzalanıb ki, bu sənədlərin hər biri rəqəmsal transformasiyanın sürətləndirilməsinə xidmət edir.




Dünyanın nüfuzlu şirkətlərindən biri olan “Baker Hughes” ilə imzalanmış əməkdaşlığa dair sazişə əsasən, neft sənayesində yeni texnologiyaların, elektrik dalma nasoslarının tətbiqi və quyular üzrə rəqəmsallaşmanın aparılması üzrə birgə əməkdaşlıq nəzərdə tutulur.

Azərbaycan Dövlət Neft Şirkəti və Özbəkistanın “Uzbekneftegaz” şirkəti arasında imzalanmış sazişə əsasən, tərəflər rəqəmsal texnologiyalar sahəsində əməkdaşlığa başlayıb. SOCAR ilə qlobal texnologiya şirkəti olan “Honeywell” arasında əməkdaşlıq çərçivəsində Əməliyyat Texnologiyaları Akademiyası yaradılıb ki, yeni təsisat istehsalat sahələrində rəqəmsal imkanların səfərbər olunması, idarəetmə sistemləri üzrə bilik və bacarıqlarının sistemli şəkildə inkişaf etdirilməsini nəzərdə tutur.

SOCAR və ABŞ-ın “SLB” şirkəti arasında əldə edilmiş razılığa əsasən, Xəzərin Azərbaycan sektorundakı “Bahar” və “Qum-Dəniz” yataqlarının yenidən işlənməsinə start verilib. Bu tərəfdaşlıq perspektivli hasilat zonalarının müəyyən edilməsini, hərtərəfli rezervuar modelləşdirməsinin hazırlanmasını və bu yataqlarda erkən hasilat sxemini (EPS) dəstəkləmək üçün quyu və qazma qurğuları proqramlarının layihələndirilməsini nəzərdə tutur.

Eləcə də SOCAR və “ExxonMobil” korporasiyası arasında imzalanmış “Əməkdaşlıq haqqında Memorandum”-a əsasən, “Exxon” şirkəti Xəzərdə yeni karbohidrogen tədarüklərinin başlanması və nəql infrastrukturunun şaxələndirilməsi üçün rəqəmsal həllərdən geniş istifadə edəcək.

Azərbaycan Dövlət Neft Şirkətinin digər texnoloji inkişaf layihələrindən biri Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) “Esyasoft Holding” LTD şirkəti ilə “ağıllı qaz” şəbəkəsinin layihələndirilməsi, qurulması və istifadəyə verilməsi haqqında imzalanmış müqavilə üzrə fəaliyyət planıdır. Layihənin əsas məqsədi qabaqcıl “ağıllı qaz” idarəetmə sistemi texnologiyalarının Azərbaycanda tətbiqini nəzərdə tutur. BƏƏ

### “Digital Solutions Lab” sisteminin yaradılması

şirkəti Azərbaycan ərazisində qazın paylanması sahəsində əməliyyat səmərəliliyini artırmaq, xərcləri optimallaşdırmaq, mövcud qaz itkilərini azaltmaq üçün SOCAR-a dəstək verəcək. Layihə üzrə 480 milyon dollar sərmayənin yatırılması nəzərdə tutulur. Bu sərmayə yaxın gələcəkdə şəbəkənin rəqəmsallaşdırılmasına, “Rəqəmsal həllər laboratoriyası”nın (“Digital Solutions Lab”) yaradılması ilə qabaqcıl texnologiyaların ölkəmizə gətirilməsini və beynəlxalq təcrübə mübadiləsini təmin edəcək.

Həmçinin SOCAR-ın BƏƏ şirkəti - “Emirates National Oil Company Group” (“ENOC Group”) arasında əməkdaşlıq razılaşmasına əsasən, müddət əvvəl tərəflər kəşfiyyat, hasilat, rəqəmsallaşma, ticarət, marketinq istiqamətlərində birgə addımlar atılacaq. SOCAR-la BƏƏ-nin “Dragon Oil” şirkəti arasında imzalanmış anlaşma memorandumu isə mədən sənayesi hasilatında “ağıllı texnologiyalar”ın tətbiqini nəzərdə tutur.

**SOCAR rəqəmsal inkişaf və süni intellektin tətbiqi, müasir texnologiyalarla təchiz edilmiş idarəetmə mərkəzinin qurulması ilə neft sənayesində yeni mərhələ açmaqdadır. Bu baxımdan dünyanın ən böyük transmilli konqlomeratlarından olan “Samsung Group”un törəmə şirkəti “Samsung E&A Co., Ltd.” ilə əməkdaşlıq SOCAR üçün mühüm əhəmiyyət kəsb edir. Adıçəkilən şirkət qlobal mühəndislik, satınalma və tikinti podratçısı kimi texniki-iqtisadi əsaslandırma, detallı mühəndislik, satınalma, tikinti, istismaravermə və layihə idarəetməsi daxil olmaqla, inteqrə olunmuş xidmətlərin təqdimatında son illər böyük yeniliklər tətbiq etməkdədir**

### Rəqəmsal arxitektura quruculuğuna töhfə

Göründüyü kimi, SOCAR rəqəmsal inkişaf və süni intellektin tətbiqi, müasir texnologiyalarla təchiz edilmiş idarəetmə mərkəzinin qurulması ilə neft sənayesində yeni mərhələ açmaqdadır. Bu baxımdan dünyanın ən böyük transmilli konqlomeratlarından olan “Samsung Group”un törəmə şirkəti “Samsung E&A Co., Ltd.” ilə əməkdaşlıq SOCAR üçün mühüm əhəmiyyət kəsb edir. Adıçəkilən şirkət qlobal mühəndislik, satınalma və tikinti podratçısı kimi texniki-iqtisadi əsaslandırma, detallı mühəndislik, satınalma, tikinti, istismaravermə və layihə idarəetməsi daxil olmaqla, inteqrə olunmuş xidmətlərin təqdimatında son illər böyük yeniliklər tətbiq etməkdədir. “Samsung E&A Co., Ltd.” həmçinin hidrokarbonlar və enerji infrastrukturu üzrə neft və qaz emalı zavodları, neftayırma və neft-kimya kompleksləri, qaz emalı və yardımçı infrastruktur obyektlərini layihələndirir və həyata keçirir. Şirkət Yaxın Şərq, Asiya və digər strateji enerji bazarlarında iri miqyaslı layihələrdə təcrübəyə malikdir.

Bütün bu təşəbbüslər SOCAR-ın istehsalat proseslərinin rəqəmsallaşdırılması ilə yanaşı, əməkdaşlarının da rəqəmsal bacarıqlarının inkişafına verdiyi prioritetin, eləcə də gələcəyə və innovasiyaya fokuslanan yanaşmasının daha bir real göstəricisidir. Ona görə də, SOCAR-la “Samsung” korporasiyası arasında imzalanan memorandum Azərbaycanın neft sənayesində rəqəmsal arxitektura quruculuğuna töhfə verəcək.

***E.CƏFƏRLİ***



# İlk dəfə Çində...

## Almaniya kanslerinin Pekin səfəri: İqtisadi əməkdaşlıq, yoxsa ABŞ-a "açıq məktub"?

Almaniyan kansleri Fridrix Mertsin hökumət başçısı kimi Çinə ilk səfəri reallaşdı. Səfər qlobal media məkanında və siyasi platformalarda maraqla izləndi - səbəb isə çoxdur. Belə ki, Mertsin Pekini ziyarət etməsi ikitərəfli diplomatik hadisə olmaqla yanaşı, həm də qlobal iqtisadi-siyasi balansın yenidən formalaşdığı bir mərhələdə verilmiş mühüm mesaj kimi dəyərləndirilir. Bu gün dünyada əsas iqtisadi güc mərkəzləri arasında rəqabət daha çox ABŞ və Çin arasında diqqət mərkəzinə gəlir - "köhnə qitə" sanki bu yarışda daha çox hansı cəbhələrdə yer alacağı gözləntisi ilə müşahidə edilir. Belə bir şəraitdə Avropanın, xüsusilə də onun aparıcı iqtisadi gücü olan Almaniyanın tutduğu mövqe xüsusilə maraq doğurur.

Almaniya iqtisadiyyatı artıq uzun illərdir ki, transatlantik əməkdaşlıq çərçivəsində ABŞ ilə sıx inteqrasiya olunmuş model üzərində qurulub. Məhz bu reallıq Berlini geosiyasi seçim qarşısında deyil, daha çox balans siyasəti aparmaq zərurəti ilə üz-üzə qoyur. Bu baxımdan Mertsin səfərinin tonu qarşıdurmadan çox praqmatik əməkdaşlıq mesajları üzərində qurulmuşdu - görünən budur ki, Almaniya qlobal rəqabətin sərt xəttinə qoşulmaqdan daha çox, iqtisadi maraqlarını qorumağa, riskləri diversifikasiya etməyə və eyni zamanda strateji sabitliyi saxlamağa çalışır. Mövcud şəraitdə bu yanaşma Berlinin daha təmkinli və çoxvektorlu xətt seçdiyini nümayiş etdirir.

Qeyd edək ki, Merts ABŞ prezidentinin tarif siyasəti fonunda Qərb liderlərinin Çinə səfərinin növbəti səhifəsi kimi yadda qaldı. Xatırladaq ki, buna qədər 2025-ci ilin noyabr ayında İspaniya Kralı VI Filip və 2025-ci ilin dekabr ayında Fransa Prezidenti Emmanuel Makron Çinə səfər etmişdi. 2026-cı ildə isə ard-arda İrlandiyanın Baş naziri Mişel Martin, Kanadanın Baş naziri Mark Karni, Finlandiyanın Baş naziri Petteri Orpo və Böyük Britaniyanın Baş naziri Kir Starmer də Pekinə səfər ediblər.

### Çinlə ticarət dövriyyəsi artır...

Çin Almaniyanın ən vacib ticarət tərəfdaşlarından biri kimi bu siyahıya başçılıq edir - ardından ikinci isə məhz ABŞ gəlir. Almaniya Federal Statistika İdarəsinin məlumatına görə, Çinlə ümumi dövriyyə 2025-ci ildə 2024-cü ilə nisbətən 2,1 faiz artıb, 250 milyard avrodan çox olub - eyni göstərici ABŞ ilə 5 faiz azalıb, 240 milyarda düşüb. Bununla belə Berlin ilə Pekin arasındakı iqtisadi münasibətlər təzyiq altındadır. Bu, artan ticarət kəsiri ilə bağlıdır: Çindən idxal kəskin şəkildə artır - 2025-ci ildə bu rəqəm 171 milyard avro olub, əksinə, Berlinin ixracı isə kəskin şəkildə azalıb. Çinin elektrikli avtomobil bazarının genişlənməsi, kimya sənayesinin güclənməsi Almaniyanın bu sahələrində geriləmələr yaradıb.

### Əməkdaşlığın perspektivi...

Mertsin səfəri çərçivəsində ən çox maraq doğuran görüş isə Çin-Almaniya İqtisadi Məşvərət Şurasının iclası olub. İclasda iştirak edən Çin Xalq Respublikasının Baş naziri Li Qianq bildirib ki, artan qlobal iqtisadi qeyri-sabitlik və qeyri-müəyyənlik fonunda Çin və Almaniya iki böyük iqtisadiyyat olaraq təkcə öz inkişaf məkanlarını genişləndirmir, həm də davamlı və sıx əməkdaşlıq vasitəsilə qlobal iqtisadiyyata təkan verirlər. Baş nazir qeyd edib ki, Çin və Almaniya iqtisadiyyatları bərpa prosesində müsbət tendensiya göstərir. Onun sözlərinə görə, bu il başlayan 15-ci beşillik plan dövrü ikitərəfli ticarət və iqtisadi əməkdaşlıq üçün daha geniş imkanlar açacaq.

Qeyd edək ki, Çin-Almaniya əməkdaşlığının perspektiv gələcəyi daha çox 3 istiqamətdə planlaşdırılır:

- Ənənəvi əməkdaşlığın təməli möhkəmləndirilməlidir. Çin hökumət başçısının da bildirdiyi kimi, hər iki ölkənin müəssisələri maşınqayırma, avadanlıq istehsalı və kimya sənayesi kimi sektorlarda əməkdaşlığı daha da dərinləşdirə, biznesin lokallaşdırılmasını sürətləndirə, davamlılığı və səmərəliliyi davamlı olaraq artıra bilərlər;
- Gələcək inkişaf üçün yeni imkanlardan istifadə edilməli, hər iki ölkənin müəssisələrini və tədqiqat institutlarını innovativ resursların ikitərəfli dövriyyəsini təşviq etməkdə dəstəkləməli, birgə texnologiji tədqiqatları fəal şəkildə aparmağa və nəticələrin paylaşılması üçün birgə platformalar qurmağa, eləcə də üçüncü ölkə bazarlarını birgə araşdırmalıdırlar;
- İnvestisiya və biznes üçün əlverişli mühit yaradılmalıdır.

Li Qianq Almaniya hökumətinin ölkələrində fəaliyyət göstərən Çin müəssisələri üçün açıq, ədalətli və ayrı-seçkiliyə yol verilməyən biznes mühiti təmin edəcəyinə ümid etdiyini bildirib.

F.Merts isə Almaniya və Çinin mühüm ticarət tərəfdaşları olduğunu qeyd edərək, ikitərəfli ticarət və iqtisadi münasibətlərin canlı olduğunu və uzun illərdir yüksək inkişaf səviyyəsini qoruduğunu, hər iki ölkənin iqtisadi artımına təsirli şəkildə töhfə verdiyini qeyd edib. O, Almaniyanın Çindən öyrənməyə və təcrübə mübadiləsi aparmağa sadiq olduğunu, ortaq rifahı və Almaniya-Çin münasibətlərinin uzunmüddətli sabit inkişafını təşviq etmək üçün avtomobil sənayesi, kimya, maşınqayırma, bərpaolunan enerji və rəqəmsal iqtisadiyyat kimi sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı gücləndirmək istədiyini bildirib.

### Berlin daha çox investisiya cəlb etmək niyyətindədir...

Mertsin səfəri daha çox iqtisadi mahiyyət daşıyıb - təsadüfi deyildi ki, Kansleri Almaniyanın 30 aparıcı biznes şirkətinin nümayəndəsi müşayiət edib. Səfər zamanı Fridrix Merts Çin şirkətlərini Almaniyaya investisiyalarını artırmağa çağırış edib və eyni zamanda Pekinin bazar balanssızlığını azaltmasını istəyib. Çin rəhbəri Si Cinpinlə görüşdə Merts Almaniyanın ən böyük ticarət tərəfdaşı olan Çinlə iqtisadi əlaqələri dərinləşdirmək niyyətində olduğunu bildirib. "Bu gün müzakirə etməli olduğumuz çətinliklər var, lakin fəaliyyət göstərdiyimiz çərçivə son dərəcə əlverişlidir və son onilliklərdə çox yaxşı əməkdaşlıq etmişik", - deyə o qeyd edib.

Çin də eyni mövqeni bölüşür - Çin rəhbəri Mertsin bu fikrinin qarşılığında bildirib ki, Çin və Almaniya strateji ünsiyyəti gücləndirməli və qarşılıqlı etimadı artırmalıdır.

Fridrix Merts eyni zamanda Çin rəsmiləri ilə hökumətlərarası məsləhətləşmələrin bərpasına çağırış edib. "Bilirəm ki, sələflərim müntəzəm olaraq Çinə səfər edirdilər", - deyən Merts Si Cinpin ilə görüşdə bu ənənəni davam etdirmək istəyini dilə gətirib: "Berlin hökumətinin dəyişməsi və pandemiya səbəbindən zəifləyən Almaniya-Çin hökumətlərarası məsləhətləşmələrini də bərpa etməliyik".

Görüş zamanı Merts ilə Si Cinpin həmçinin Ukraynadakı müharibəni də müzakirə ediblər. Si Cinpin Ukrayna münaqişəsinin həllində hər iki tərəfin bərabər iştirakına çağırış edib. "Əsas məsələ dialoq və danışıqlar yolu ilə həll vasitələri axtarmaqdır", - deyə Çin lideri bildirib.

### Siyasi gediş: niyə Pekindən sonra Vaşinqtona?

Qeyd edək ki, səfər çərçivəsində epizodik olsa da, qlobal siyasi proseslərə də toxunulub. Müzakirələrdə ABŞ-ın tarif siyasəti, Ukraynadakı müharibə və digər beynəlxalq münaqişələr aparıcı mövzu olub. Sirr deyil ki, avropanı Çinə istiqamətləndirən məhz taarif siyasətidir - prosesə Almaniyanın da qoşulması onu göstərir ki, Avropa qarşıdakı mərhələdə əsas ticarət tərəfdaşı kimi məhz Çinə "yatırım" edə bilər.

Bundan əlavə, Merts hələ Çinə yola düşməzdən əvvəl "Tayvan məsələsi" ilə bağlı mövqeyini ortaya qoyub - "Tayvana gəldikdə, Almaniya hökuməti "vahid Çin" siyasətinə sadiqdir," - deyən Merts Almaniyanın mövqeyini bölüşüb.

Mertsin Çin səfərinin maraq doğuran məqamlarından biri isə bu səfərin davamıdır - daha doğrusu, Çinin ardından Mertsin Vaşinqtona edəcəyi səfərdir. Siyasi mütəxəssislər ABŞ-ın Almaniyaya qarşı xüsusi bir münasibət sərgiləyəcəyi haqda birmənalı fikir irəli sürmürlər - hətta, Pekinə səfərin yalnız ABŞ-dan lazımi dəstəyi qazanmaq üçün gərəkdiyini düşünənlər də var. Çunki son tarif tənzimlənməsi Aİ ilə ABŞ arasındakı münasibətlərdə gərginlik yaratdığı kimi, Almaniya ilə münasibətlərə də təsir göstərə bilər.

**P.İSMAYILOV**

# Münaqişə nə vaxt bitir?

## Ukrayna "bu il" deyir, Rusiya isə susur...

### ABŞ prosesi yekunlaşdırmaqda qərarlıdır

ABŞ Prezidenti Donald Trampın qlobal təhlükəsizlik və qlobal sülh siyasətinin əsas hədəflərindən biri də Rusiya ilə Ukrayna arasındakı müharibənin dinc yolla həllidir. Artıq 4-cü ili tamam olan müharibə beynəlxalq münasibətlər sisteminə əsaslı mənfi təsirləri ilə yadda qalır. Avropanın mərkəzində belə bir müharibə ocağının varlığı həm iqtisadi, həm də siyasi münasibətlərin təmərküzləşməsinə təhdid və təhlükə formalaşdırır. Bu mənada, tərəflər arasında konsensusun əldə olunması üçün ortaya qoyulan cəhdlər yüksək dəyərləndirilir. Xüsusilə, Vaşinqtonun artıq bir ilə yaxındır ki, başlatdığı sülh prosesi müəyyən nəticələr vəd etməkdədir. 2020-ci il ərzində baş tutan bir neçə görüş tərəflər arasında müəyyən razılıqlara belə yol açıb - istər münaqişə tərəfləri, istərsə də vasitəçilər bu görüşləri müsbət nəticəyə doğru uğurlu addım adlandırırlar. Təsadüfi deyil ki, ABŞ-ın dəstəyi ilə baş tutan son Cenevrə danışıqları da müsbət yöndə dəyərləndirilir və gələcək əlaqələr üçün mühüm bir vasitə adlandırılır.

### İki prezident telefonla danışdı...

Qeyd edək ki, Cenevrə danışıqlarından sonra verilən mesajlarda da tərəflər arasında dialoqun daha da intensivləşdirilməsinin nəzərdə tutulduğu açıqlanmışdı. Nəticə isə artıq göz önündədir - belə ki, ABŞ Prezidenti Donald Tramp ilə Ukraynanın Prezidenti Volodimir Zelenski arasında telefon danışığı baş tutub. "Axios"un məlumatına görə, yarım saatlıq telefon danışığı ilə bağlı tam açıqlama verilməyib. Ukrayna prezidentinin müşaviri Dmitri Litvin prezidentlər arasında söhbəti təsdiqləyib. Ukrayna Prezidenti Zelenski isə sosial media hesablarında bildirib ki, o və Tramp fevralın 26-da Cenevrədə ABŞ və Ukrayna nümayəndə heyətlərinin görüşündə üzərində işləyəcəkləri məsələləri müzakirə ediblər. Liderlər həmçinin, martın əvvəlində keçiriləcək növbəti üçtərəfli görüşü də müzakirə ediblər. "Ümid edirik ki, bu, bizə liderlik səviyyəsində danışıqlara keçməyə imkan verəcək. Prezident Tramp bu addımlar ardıcıllığını dəstəkləyir. Bu, bütün mürəkkəb və həssas məsələləri həll etməyin və nəhayət müharibəyə son qoymağın yeganə yoludur", - deyə Zelenski qeyd edib.

Zelenski Ukrayna və Rusiya arasında növbəti görüşlərin ən ali səviyyədə baş tutmasına ümid etdiyini və Trampın bu addımları dəstəklədiyini bildirib. Lakin Ukrayna lideri üç ölkənin nümayəndə heyətlərinin görüşünün təxirə salınmasının səbəblərini açıqlamayıb. Qeyd edək ki, Donald Trampın Ukrayna üzrə xüsusi nümayəndəsi Stiv Vitkoff ABŞ nümayəndə heyətinin 26 fevralda Cenevrədə Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşəcəyini bildirmişdi. Vitkofun sözlərinə görə, Rusiya nümayəndə heyəti ilə danışıqlar bundan sonra çox güman ki, növbəti 10 gün ərzində baş tutmalı idi. Amma artıq ssenari dəyişib - belə ki, Ukrayna nümayəndə heyətinin yerini Vladimir Putinin xüsusi nümayəndəsi Kirill Dmitriyev "tutub". Reuters-in məlumatına görə, bu görüş, Vladimir Putin və Donald Trampın Avropadakı nümayəndələri arasında bir həftə ərzində ikinci görüşüdür. Xatırladaq ki, fevralın 23-də tərəflər Cenevrədə Yeni START Nüvə Silahlarına Nəzarət Müqaviləsinin (Yeni START) yenilənməsini də müzakirə edərək danışıqlar aparıblar.

### Zelenski ilə Tramp arasındakı görüş...

Xatırladaq ki, Tramp və Zelenski arasında bu il artıq görüş baş tutub - onlar yanvarın 21-də Davosda keçirilən Dünya İqtisadi Forumu çərçivəsində görüşüblər. Həmin vaxt "The Financial Times" qəzeti tərəflərin Amerika və Ukrayna rəsmilərinin sammitdən əvvəl razılaşdırdıqları sənədləri yekunlaşdırmadığını və onları imzalamadığını bildirmişdi. Qəzet razılaşmanın baş tutmasının səbəbini Ukrayna lideri ilə əlaqələndirmişdi.

Zelenski öz növbəsində Ukraynanın bəzi məsələlərə razılaşmadığını, daha doğrusu, Rusiyanın irəli sürdüyü tələbləri qəbul etmədiyini açıqlamışdı. Qeyd edək ki, Moskva Ukrayna qoşunlarının Donbas, Zaporojye və Xerson vilayətlərindən çıxarılmasını, bu ərazilərin və Krımın Rusiyanın bir hissəsi kimi tanınmasını israr edir.

### Görüşlər niyə və necə dəyişdi?



### Kompromis əldə edilmir - Donbas və Zaporojye...

2026-cı il münaqişə və vasitəçi tərəflər arasında dinamik görüşlər dövrü kimi qiymətləndirilir. ABŞ-ın vasitəçiliyi ilə Ukrayna və Rusiya arasında danışıqlar 23 yanvardan bu yana davam edir. Həmin vaxt üç ölkənin nümayəndə heyətlərinin Əbu-Dabidə iki günlük görüşü keçirilmişdi. Bundan sonra 4-5 fevralda BƏƏ-də daha bir danışıqlar raundu keçirilib. Ardınca nümayəndə heyətləri 17-18 fevralda Cenevrədə görüş keçiriblər. Lakin nümayəndələrin gözlədiyi kimi, danışıqların hər üç raundu ərzində sülhə doğru heç bir irəliləyiş əldə edə bilməyib. Vurğulandığı kimi, Rusiyanın Ukraynaya qarşı müharibəsinə son qoymaq üçün aparılan danışıqlarda ən mübahisəli məsələlərdən biri Moskvanın Donbasın işğal olunmamış ərazilərinin də döyüşsüz verilməsi tələbidir. Kiyev bu cür ərazi iddialarını rədd edir, lakin kompromis variantları axtarmağa hazırdır. Zelenski əvvəllər bildirmişdi ki, belə variantlardan biri hazırkı təmas xətti boyunca hərbi əməliyyatların dayandırılması ola bilər.

Digər problem isə Rusiya qüvvələrinin 2022-ci ilin martında ələ keçirdiyi Zaporojye Atom Elektrik Stansiyası ilə bağlıdır - Zelenski bildirmişdi ki, stansiyanın idarəetmə məsələsi hələ də həll olunmayıb. Vurğulayaq ki, Ukrayna stansiyanın nəzarətini geri qaytarmağa israr edir, Moskva isə həttа stansiyanın nəzarətinin ABŞ-a verilməsini belə istisna edir. Zelenskinin sözlərinə görə, bu məsələ hərtərəfli şəkildə həll olunmalıdır - məsələn, Kaxovka Su Elektrik Stansiyasının bərpası ilə birlikdə.

### ABŞ sülhə tez nail olmaq istəyir - hətta 1 aya...

Qeyd edək ki, ABŞ-ın məsələdəki mövqeyi sülh prosesinə mümkün qədər tez nail olmaqdır. Xarici KİV-lərin bəzi dövlət rəsmilərinə istinadən yaydığı məlumatlarda bildirilir ki, Vaşinqton Ukraynaya bu il sülh müqaviləsini imzalamağa çağırış edib. Zelenski də bu barədə açıqlamalar verib - hətta müharibənin bu il bitəcəyinə ümid etdiyini bildirib. Tramp isə müharibənin çox uzun sürdüyünü deyib - hətta 1 ay ərzində müqavilənin imzalanmasını istəyib. Yeri gəlmişkən, bir neçə gün öncə ABŞ-ın Dövlət katibi Marko Rubio bildirmişdi ki, ABŞ Ukraynadakı münaqişənin həlli prosesindən uzaqlaşmaq istəmir, amma Trampın səbri sonsuz deyil. Dövlət katibi bildirib ki, Prezident Donald Tramp Ukraynadakı münaqişənin niyə həll olunmadığını və hələ də davam etdiyini başa düşmür: "Tramp sülh yolu ilə həllin təşviqi üçün çox iş görüb və bu prosesə xeyli siyasi kapital qoyub. O, sadəcə olaraq başa düşmür ki, bu qədər qəddar, dəhşətli və qanlı müharibəyə cəlb olunmuş iki ölkə necə razılığa gələ bilmir".

Dövlət katibi əlavə edib ki, ABŞ-dan başqa dünyada heç bir ölkə Rusiya və Ukrayna arasında danışıqları asanlaşdıra bilməz. "Əgər biz danışıqlardan çıxsaq, bunu kim edəcək? BMT bunu etməyəcək. Fransa bunu etməyəcək. Aİ bunu etməyəcək. Ruslar hətta Ukrayna ilə danışmayacaq", - deyə rəsmi bildirib. O, vurğulayıb ki, Vaşinqton sülh prosesindən çıxsa, danışıqlar çox güman ki, dayandırılacaq.

**P.İSMAYILOV**

# Ağ Evin səmasında yeni simvol

## Siyasət, imic və prezidentlik brendi “Air Force One” dəyişilir




ABŞ prezidentliyinin ən tanınan atributlarından biri sayılan “Air Force One” yalnız nəqliyyat vasitəsi yox, həm də Amerika dövlət gücünün, diplomatiyasının və siyasi simvolizmin vizual ifadəsi hesab olunur. 1962-ci ildən bəri, demək olar, dəyişməz qalan prezident təyyarəsinin xarici görünüşünün yenilənməsi barədə qərar isə Vaşinqtonda yeni siyasi və ictimai müzakirələrə səbəb olub. ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə gündəmə gələn dizayn dəyişikliyi sadəcə estetik yenilənmə kimi deyil, prezident institutunun təqdimat fəlsəfəsində dəyişiklik kimi qiymətləndirilir. Lakin praktikada bu termin əsasən iki xüsusi modifikasiya edilmiş Boeing VC-25A təyyarəsi, yəni Boeing 747-200B platforması ilə assosiasiya olunur. Bu təyyarələr 1990-cı ildə prezident Corc Herbert Uoker Buşun dövründə xidmətə qəbul edilib və hər biri təxminən 4000 kvadrat fut (təxminən 370 kvadratmetr) daxili sahəyə malikdir. Təyyarədə prezident ofisi, konfrans zalı, tibbi blok, təhlükəsizlik bölməsi və jurnalistlər üçün ayrıca zonalar yerləşir. ABŞ Hərbi Hava Qüvvələrinin məlumatına görə, təyyarə havada yanacaq doldurmaq qabiliyyəti sayəsində nəzəri baxımdan fasiləsiz uçuş həyata keçirə bilər və nüvə böhranı zamanı mobil komanda mərkəzi kimi fəaliyyət göstərmək üçün EMP (elektromaqnit impuls) qoruma sistemləri ilə təchiz olunub. Hazırda “Air Force One” adı texniki baxımdan ABŞ prezidentinin göyərtəsində olduğu istənilən ABŞ Hərbi Hava Qüvvələri təyyarəsinə verilən çağırış kodudur. Prezident təyyarəsi faktiki olaraq “uçan Ağ Ev” funksiyasını yerinə yetirir.

Bir nömrəli təyyarənin bugünkü vizual kimliyi isə soyuq müharibə dövrünün məhsuludur. 1961-ci ildə prezident seçilmiş Con Kennedinin administrasiyası daha müasir və ciddi dövlət imici yaratmaq məqsədilə məşhur sənaye dizayneri Raymond Loewy-ni layihəyə cəlb etmişdi. Loewy əvvəlcə qırmızı-qızılı rəngli variant təqdim etsə də, Kennedi daha sakit və diplomatik mesaj verən açıq mavi və ağ rəng versiyasını seçdi. Bu dizayn yarım əsrdən çox müddətdə Lindon Consondan Co Baydenə qədər bütün prezidentlər tərəfindən dəyişdirilmədən qorundu və ABŞ dövlətçiliyinin davamlılıq simvoluna çevrildi.

Donald Tramp isə ilk prezidentliyi dövründə - 2019-cu ilin iyununda bu ənənəni dəyişmək niyyətini açıq şəkildə bəyan etdi. O zaman Tramp ABC News-a müsahibəsində bildirmişdi: “Bizim təyyarəmiz Amerikanın gücünü əks etdirməli, daha müasir və daha güclü görünməlidir”. Onun təklif etdiyi dizaynda tünd göy alt hissə, parlaq qırmızı zolaq və ağ üst hissə nəzərdə tutulurdu. Tramp bu fikirdəydi ki, mövcud açıq mavi rəng “köhnəlmiş” təsir bağışlayır. Həmin dövrdə layihə texniki problemlər və əlavə xərc riskləri səbəbindən dayandırılmışdı. ABŞ Hərbi Hava Qüvvələrinin mühəndisləri tünd rənglərin günəş istiliyini daha çox udduğunu, bu səbəbdən bəzi texniki sistemlərə əlavə yük yarada biləcəyini qeyd etmişdilər.

2026-cı ildə layihənin yenidən gündəmə gəlməsi isə prezident aviasiyasının ümumi modernləşdirilməsi proqramı ilə əlaqələndirilir. ABŞ Hərbi Hava Qüvvələri artıq Boeing şirkəti ilə VC-25B adlandırılan yeni nəsil prezident təyyarələrinin hazırlanması üzərində işləyir. Bu proqramın ilkin müqavilə dəyəri 3,9 milyard dollardır. Yeni təyyarələrin əsasını Boeing 747-8 platforması təşkil edir və onların 2027-29-cu illərdə tam istifadəyə verilməsi planlaşdırılır.

**Səmanın diplomatiyası: uçan simvolun siyasi gücü**

“Air Force One” tarix boyu yalnız nəqliyyat vasitəsi deyil, siyasi teatrın bir hissəsi olub. 1972-ci ildə prezident Riçard Niksonun Çin Xalq Respublikasına tarixi səfəri, 2001-ci ilin 11 Sentyabr terror hücumları zamanı prezident Corc Buşun havada təhlükəsiz idarəetmə qərargahı kimi istifadə etdiyi uçuş və 2022-ci ildə Co Baydenin Ukraynaya gizli səfəri bu təyyarənin diplomatiya və təhlükəsizlik məsələlərində rolunun bariz nümunələridir. Prezidentin pilləkənlə təyyarədən enməsi səhnəsi qlobal mediada ən çox yayımlanan siyasi görüntülərdən biridir və faktiki olaraq ABŞ liderliyinin vizual ritualına çevrilib.

Birləşmiş Ştatların keçmiş milli təhlükəsizlik müşaviri Con Bolton bir çıxışında demişdi: “Air Force One dünyada ABŞ bayrağının ən mobil formasıdır”. Digər tərəfdən, siyasi kommunikasiya üzrə ekspertlər hesab edirlər ki, Trampın dizayn təşəbbüsü onun siyasətdə brend yanaşmasının davamıdır. Corctaun Universitetinin professoru, doktor Maykl O'Hanlon bildirib ki, Tramp simvollar vasitəsilə siyasət qurmağa üstünlük verir və prezident təyyarəsinin görünüşünü dəyişmək “vizual güc siyasəti” nümunəsidir.

Maraqlı faktlardan biri də odur ki, “Air Force One” uçuş zamanı ABŞ-ın hava məkanı qaydalarından fərqli xüsusi prioritet statusa malikdir. Təyyarə havaya qalxanda ölkənin hava məkanında yüzlərlə kilometr radiusla təhlükəsizlik zonası yaradılır. Prezident səfərləri zamanı isə ABŞ gizli xidməti əvvəlcədən eniş aeroportlarını günlərlə yoxlayır, bəzi hallarda kanalizasiya sistemləri belə təhlükəsizlik baxımından araşdırılır.

Dizayn dəyişikliyinin tərəfdarları bunu milli gücün daha açıq nümayişi kimi qiymətləndirirlər. Respublikaçı senator Tom Koton bildirib ki, “Amerikanın liderlik simvolları güc və qətiyyət mesajı verməlidir”. Demokrat siyasətçilər isə əks mövqedədirlər. Nümayəndələr Palatasının üzvü Ceymi Raskin bu addımı “tarixi institusional neytrallığın siyasiləşdirilməsi” adlandırıb.

Bütün bunlar göstərir ki, “Air Force One” ətrafında gedən müzakirə əslində rəng seçimi deyil, prezident institutunun necə təqdim olunması barədə debatdır. ABŞ tarixində simvollar həmişə siyasətin ayrılmaz hissəsi olub - Ağ Ev, Oval kabinet və prezident limuzini kimi prezident təyyarəsi də dövlət gücünün səyyar simvoludur. İndi isə həmin simvol dəyişmək üzrədir. Ağ Evin səmasında görünəcək yeni rənglər yalnız texniki yenilik deyil, ABŞ siyasətində imic, liderlik və güc anlayışlarının necə transformasiya olunduğunu göstərən vizual mesajdır. “Air Force One”ın dəyişməsi bir daha göstərir ki, böyük dövlətlər bəzən güclü siyasi bəyanatları qanun layihələri ilə deyil, simvollar vasitəsilə verir.

# Kuba sosial fəlakət ərəfəsində

## Yanacaq qıtlığının ictimai-siyasi problemə çevrilməsinin əyani mənzərəsi

Karib hövzəsinin simvol şəhərlərindən biri olan Havana 2025-26-cı illərdə ölkənin son onilliklər boyu üzləşdiyi ən ağır sosial-kommunal böhranlardan birinin mərkəzinə çevrilib. Küçələrdən günlərlə yığılmayan tullantılar, kəskin dizel yanacağı qıtlığı, fasilələrlə verilən elektrik enerjisi və iflic vəziyyətinə düşən nəqliyyat sistemi Kubanın iqtisadi modelində yığılan problemlərin artıq açıq sosial nəticələrə çevrildiyini göstərir. Ekspertlərin fikrincə, Havana küçələrinə yığılan zibil sadəcə kommunal problem deyil, enerji, maliyyə və idarəetmə böhranlarının üst-üstə düşməsinin vizual simvoludur.

2026-cı ilin yanvar ayında Havana Bələdiyyə Xidmətləri İdarəsi açıqladı ki, şəhərdə tullantıların daşınması üçün nəzərdə tutulmuş yük maşınlarının yalnız 40 faizi işləkdir. Qalan texnika isə ya yanacaq çatışmazlığı, ya da ehtiyat hissələrinin olmaması ucbatından dayanıb. Rəsmi statistikaya görə, paytaxtda gündə orta hesabla 23-25 min kubmetr məişət tullantısı yaranır, lakin yanacaq böhranı səbəbindən bunun yalnız yarısı daşınır. Nəticədə Centro Habana, Diez de Octubre və Marianao kimi sıx məskunlaşmış rayonlarda zibil həftələrlə küçələrdə qalır.

Kuba Energetika və Mədənlər Nazirliyinin rəhbəri Vicente de la O Levi 2026-cı ilin fevralında parlamentdəki çıxışında bildirmişdi ki, ölkənin dizel ehtiyatları kritik minimum səviyyəyə düşüb. Onun sözlərinə görə, 2024-cü illə müqayisədə yanacaq idxalı təxminən 35-40 faiz azalıb. Kuba iqtisadiyyatı uzun illər ərzində Venesueladan güzəştli şərtlərlə alınan neftə əsaslanırdı. Lakin Venesuela Prezidenti Nikolas Maduro hökumətinin öz enerji böhranı və ABŞ sanksiyaları səbəbindən ixrac imkanlarının azalması Havananın enerji balansını ciddi şəkildə pozdu. Kuba Prezidenti Migel Dias-Kanel 2025-ci ilin dekabrında televiziya ilə müraciətində ölkənin vəziyyətini “mürəkkəb enerji mühasirəsi” kimi xarakterizə edərək ABŞ sanksiyalarını əsas səbəb kimi göstərdi. ABŞ tərəfindən tətbiq olunmuş embarqonun hüquqi əsası 1996-cı ildə qəbul edilmiş Helms-Burton Aktına dayanır, son illərdə bu embarqo əlavə məhdudiyyətlərlə bir az da genişləndirilib. ABŞ Dövlət Departamentinin keçmiş rəsmisi və Latın Amerikası üzrə analitik Mark Fayerstayn isə qeyd edir ki, sanksiyalar təsirli olsa da, Kubanın daxili iqtisadi modelində struktur problemləri daha böyük rol oynayır: “Mərkəzləşdirilmiş planlaşdırma sistemi enerji şoklarına adaptasiya qabiliyyətini zəiflədir”.



BMT-nin İnkişaf Proqramının (UNDP) Karib regionu üzrə koordinatoru Fransisko Pichon 2026-cı ilin yanvar hesabatında xəbərdarlıq edirdi ki, tropik iqlim şəraitində tullantıların uzun müddət açıq qalması danq qızdırması, leptospiroz və bağırsaq infeksiyalarının yayılma riskini artırır. Havana Universitetinin epidemioloqu, professor Maria Elena Soto bildirib ki, temperaturun 28-30°C olduğu şəraitdə üzvi tullantılar 48 saat ərzində təhlükəli bakterial mühitə çevrilir.

Enerji böhranının kökləri isə daha dərindir. Kuba elektrik enerjisinin təxminən 80 faizini mazut və dizel əsaslı istilik elektrik stansiyalarında istehsal edir. Bu stansiyaların əksəriyyəti 1970-80-ci illərdə Sovet İttifaqının texniki dəstəyilə qurulub və bu gün ciddi aşınma mərhələsindədir. 2024-cü ildə ölkənin ən böyük elektrik stansiyalarından biri olan Antonio Guiteras TES-də baş verən qəza ümumi enerji istehsalının təxminən 15 faiz azalmasına səbəb olmuşdu. Enerji eksperti, Havananın Enerji Araşdırmaları Mərkəzinin rəhbəri, doktor Xorxe Pinon qeyd edir ki, “Kubanın enerji sistemi modernləşdirilməsə, hər yeni yanacaq böhranı sosial böhrana çevriləcək”.

Sosial təsirlər artıq açıq görünür. 2021-ci ilin iyul etirazlarından sonra nadir hallarda müşahidə edilən ictimai narazılıq yenidən artır. 2025-ci ilin sonu və 2026-cı ilin əvvəlində Santyaqo-de-Kuba və Matanzas şəhərlərində elektrik kəsintilərinə qarşı kiçik etiraz aksiyaları qeydə alınıb. Kubanın daxili işlər naziri, general Lazaro Alberto Alvarez Casas vəziyyətin “xarici təzyiq və iqtisadi sabotaj nəticəsi” olduğunu bildirsə də, yerli sosioloqlar daha mürəkkəb mənzərə təsvir edirlər. Havana Universitetinin politoloqu Rafael Hernandez yazır ki, “zibil böhranı insanların gündəlik həyatında dövlətin zəiflədiyini hiss etdikləri ən aşkar simvoldur”.

Turizm sektoru da böhrandan ciddi zərbələr alır. 2019-cu ildə Kubaya 4,2 milyon turist gəlmişdisə, 2025-ci ildə bu rəqəm 2,4 milyonu keçməyib. Enerji kəsintiləri üzündən otellərin generator xərcləri artıb, nəqliyyat problemləri isə turizm xidmətlərini bahalaşdırıb. İspaniyanın turizm analitiki Xose Luis Zoreda bildirir ki, “turistlər üçün ilk təəssürat aeroportdan otelə gedərkən gördükləridir və zibillə dolu küçələr ölkənin imicinə birbaşa zərbə vurur”.

Regionda geosiyasi amillər də rol oynayır. Çin son illər Kubaya kredit və texnoloji dəstək versə də, investisiyalarını daha ehtiyatlı şəkildə həyata keçirir. Rusiya isə 2023-cü ildə enerji əməkdaşlığını genişləndirmək niyyətini açıqlasa da, Ukrayna müharibəsi səbəbindən iqtisadi imkanları məhdudlaşıb. Moskva ilə Havana arasında enerji sahəsində razılaşmalar olsa da, tədarüklər gözlənilən səviyyəyə çatmayıb.

Bütün bu faktorlar bir nəticəni ortaya qoyur: Havana küçələrinə yığılmış tullantılar təsadüfi hadisə deyil, uzun illər ərzində formalaşmış enerji asılılığının, köhnəlmiş infrastrukturun və beynəlxalq iqtisadi təcridin kəsişmə nöqtəsidir. Politoloq Arturo Lopez-Levy hesab edir ki, Kuba hazırda post-sovet dövründən bəri ikinci böyük sistem sınağı yaşayır və ölkə enerji modelini diversifikasiya etməlidir, əks halda sosial gərginliyin artmasıyla üzləşəcək. Bu gün Havananın isti və rütubətli küçələrində qalaqlanan zibil təkcə sanitariya problemi deyil, dövlət idarəçiliyi, enerji təhlükəsizliyi və qlobal siyasətin kiçik ada dövlətlərinə necə təsir göstərdiyini nümayiş etdirən əyani göstəricidir. Karib dənizinin sahilində yaranan bu böhran bir daha sübut edir ki, XXI əsrdə yanacaq çatışmazlığı təkcə iqtisadi problem deyil, bu məsələ hər an birbaşa sosial sabitlik və siyasi gələcək məsələsinə çevrilə bilər.

# Pasifizmdən hərbi aktivliyə doğru

## Yaponiya yeni mərhələyə adlayır

Şərqi Asiyada geosiyasi proseslər sürətlə dəyişdiyi bir vaxtda Yaponiya uzun illər sadiq qaldığı pasifist siyasətdən tədricən uzaqlaşaraq yeni təhlükəsizlik strategiyası formalaşdırmağa başlayıb. Son seçkilərin nəticələri göstərir ki, Tokio artıq yalnız iqtisadi güc kimi yox, hərbi-siyasi aktor kimi də çıxış etməyə hazırlaşır. 2025-ci ilin sonlarında keçirilmiş növbədənkənar parlament seçkilərində hakim Liberal Demokrat Partiyası (LDP) böyük qələbə qazandı. Partiyanın lideri və Yaponiyanın Baş naziri Sanae Takaiçi seçkilərə şəxsi siyasi nüfuzunu riskə ataraq getmişdi. Nəticədə LDP parlamentin aşağı palatasında yerlərin təxminən üçdə ikisini əldə edərək konstitusion çoxluğa nail oldu. Bu nəticə hökumətə qanunvericilik təşəbbüslərini maneəsiz həyata keçirmək imkanı verdi. Analitiklər bunu son onilliklərin ən güclü siyasi mandatlarından biri hesab edirlər.

**1947-ci il konstitusiyası və mübahisəli 9-cu maddə**

Yaponiyanın təhlükəsizlik siyasətinin əsasını təşkil edən sənəd 1947-ci ildə qəbul olunmuş konstitusiyadır. İkinci Dünya müharibəsindən sonra ABŞ-ın nəzarəti altında hazırlanmış bu sənədin məşhur 9-cu maddəsi ölkənin müharibə aparmaq hüququndan imtina etdiyinin təsbitidir. Rəsmi olaraq Yaponiya ordusu yoxdur, yalnız özünümüdafiə qüvvələri fəaliyyət göstərir. Lakin reallıqda bu qüvvələr texniki və maliyyə imkanlarına görə dünyanın ən güclü ordularından biridir. “Global Firepower” reytinqinə əsasən, Yaponiya hərbi gücünə görə dünyada 7-ci yerdə qərarlaşıb. Baş nazir Sanae Takaiçi seçki kampaniyası zamanı açıq şəkildə bəyan etmişdi ki, dəyişən təhlükəsizlik mühiti konstitusiyanın yenidən nəzərdən keçirilməsini aktuallaşdırıb. Onun planına görə, Yaponiya preventiv zərbə imkanları əldə etməli, müdafiə siyasətini daha aktiv modelə keçirməlidir.



**Müdafiə xərcləri və ABŞ ilə hərbi əməkdaşlıq**

Rəsmi Tokio artıq konkret addımlar atmağa başlayıb. Hökumət müdafiə xərclərini mərhələli şəkildə artıraraq 2027-ci ilə qədər ÜDM-in 2 faizi səviyyəsinə çatdırmağı planlaşdırır. NATO standartlarına uyğun bu göstərici Yaponiya üçün tarixi dəyişiklik sayılır. Yaponiya ABŞ ilə hərbi əməkdaşlığı da genişləndirir, Donald Tramp administrasiyası Tokionun təhlükəsizlik sahəsində rolunun artmasını açıq şəkildə dəstəkləyir. ABŞ-ın Yaponiyada yerləşən hərbi bazalarında artıq on minlərlə amerikalı hərbçi xidmət edir və bu bazalar Asiya-Sakit okean regionunda Vaşinqtonun əsas strateji dayaqlarından sayılır.

**“Yaponiyanın CIA-i” və casusluq qanunu**

Hökumətin gündəmindəki yalnız ordu məsələsi deyil. Baş nazir Takaiçi ölkədə xarici kəşfiyyat sisteminin yaradılmasını da təklif edib. Hazırda Yaponiya İkinci Dünya müharibəsindən sonra tammiqyaslı xarici kəşfiyyat strukturuna malik olmayan tək-tük inkişaf etmiş dövlətlərdən biridir. Yeni planlara əsasən, milli xarici kəşfiyyat agentliyinin yaradılması, casusluğa qarşı sərt qanunun qəbul edilməsi, xarici təsir mexanizmlərinə nəzarət sisteminin qurulması nəzərdə tutulur. Siyasi dairələrdə bu təşəbbüs qeyri-rəsmi şəkildə “Yaponiyanın CIA-i” adlandırılır.

Bununla belə, Yaponiya cəmiyyətində güclü pasifist düşüncə qalmaqdadır. İkinci Dünya müharibəsinin travmatik xatirəsi ictimai şüura hələ də təsir göstərməkdədir. Sorğulara əsasən deyə bilərik ki, əhalinin əhəmiyyətli hissəsi konstitusiyanın tam dəyişdirilməsinə ehtiyatla yanaşır. Ekspertlər hesab edirlər ki, konstitusiyanın dəyişdirilməsi üçün parlament çoxluğu kifayət etmir, referendum da tələb olunur. Bu isə hökumət üçün ən çətin mərhələ ola bilər.

Yaponiyanın hərbi aktivliyinin artması birbaşa regional təhlükəsizlik mühitinə bağlıdır. Şimali Koreyanın raket sınaqları, Çinin hərbi gücünün sürətli artımı və Tayvan ətrafında gərginlik Tokionu daha sərt siyasətə sövq edir. Hazırda ABŞ-Yaponiya-Cənubi Koreya üçtərəfli təhlükəsizlik əməkdaşlığı güclənir. Bu isə Şərqi Asiyada yeni geosiyasi bloklaşmanın formalaşdığını göstərir.

**Yeni Yaponiya formalaşır**

Bütün bu proseslər onu deyir ki, Yaponiya artıq iqtisadi nəhəng statusu ilə kifayətlənmək istəmir. Tokio dəyişən dünya nizamında təhlükəsizliyini başqalarının yox, öz imkanları hesabına təmin etməyə çalışır. Pasifist konstitusiyanın kölgəsində doğulmuş müasir Yaponiya indi seçim qarşısındadır: ya əvvəlki siyasi fəlsəfəni qorumaq, ya da artan təhlükələr fonunda tamhüquqlu hərbi gücə çevrilmək. Görünən odur ki, tarixdən ağır dərs almış ölkə bu dəfə təhlükəsizlik məsələsində tərəddüd etməməyə qərar verib.



*Kərəmət QƏNBƏROV,*
*Beynəlxalq hüquq üzrə ekspert*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**





## Ramazan ayı 9-cu günün duası

**Allahumməc-əl li fihi nəsibən min rəhmətikəl-vasiə. Vəhdini fihi libərahinikəs-satiə. Və xuz binasiyəti ila mərzatikəl-camiə. Biməhəbbətikə ya əməlәl- müştaqin.**

**Tərcüməsi:**

**İlahi, bu gün öz bol rəhmətini mənə nəsib et. Məni öz parlaq dəlillərinlə istiqamətləndir. Məni sənin razılığına bais olan və hər cür xeyri özündə cəm edən əməllərə doğru çək. Məhəbbətinə and verirəm, ey şövqlülərin istəyi!**

# İştahanı “susduran” iynələr...

*Yeganə BAYRAMOVA*

Son zamanlar zəhmətsiz arıqlamağın ən qısa yolu kimi arıqlama iynələrinə tələbat artıb. Bu iynələr qısa zamanda arzulanan bədən quruluşuna çatmaq vədi ilə milyonlarla insanı cəlb edir. Xüsusilə sosial şəbəkələrdə “möcüzəvi nəticələr”, məşhurların sürətli dəyişimi və həkimlərin yeni yanaşmaları bu sualı gündəmə gətirib: arıqlama iynələri həqiqətən effektivdir, yoxsa növbəti trend?

Arıqlama iynələrinin tərkibində olan maddələr, məsələn, semaqlutid və liraqlutid beyində toxluq hissini artırır, mədənin boşalmasını ləngidir və iştahanı azaldır. Nəticədə insan daha az yeyir, tez doyur və kalori qəbulu azalır.

Klinik araşdırmalara görə, bu iynələr düzgün nəzarət altında istifadə ediləndə bədən çəkisinin 10-15 faizinə qədər azalmasına səbəb ola bilir. Bu, xüsusilə piylənmədən əziyyət çəkən insanlar üçün ciddi göstəricidir.

Lakin əsas sual budur: İynə dayandırıldıqda nə baş verir?

**“Əslində, bu iynələr arıqlamaq üçün deyil”**

Endokrinoloq İlkin Əlibəyli “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, sağlam arıqlamanın ən düzgün yolu balanslaşdırılmış qidalanma və aktiv həyat tərzidir. Lakin bir çox insan çəki itirmək üçün çay, qəhvə, həblər və ya iynə kimi sürətli həll yollarına üz tutur: “Bir zamanların arıqlama dərmanlarının yerini son illərdə arıqlama iynələri tutub. Əslində bu iynələr arıqlamaq üçün deyil, 2 növ diabetin müalicəsi üçün hazırlanıb. Lakin kilo itkisinə təsiri aşkarlandıqca, köklüyün müalicəsində də geniş yayılmağa başlayıb.

GLP-1 qrupuna aid olan və təsirli maddələri semaqlutid və liraqlutid olan bu dərmanlar hazırda yalnız 2 tip diabet müalicəsində Səhiyyə Nazirliyi tərəfindən təsdiqlənir”.

**Bədən əvvəlki rejiminə qayıdır**

Endokrinoloqun sözlərinə görə, iynənin tərkibindəki “Mounjaro” kimi GLP-1 reseptor aqonistləri iştahanı azaldaraq və toxluq hissini artıraraq çəki itkisinə kömək edir. Lakin dərman dayandırıldıqda, bədən əvvəlki qida vərdişlərinə və metabolik rejiminə qayıda bilir: “Bu isə verilmiş çəkinin böyük hissəsinin geri alınması ilə nəticələnir.

Yeni tədqiqat göstərib ki, arıqlama iynəsini dayandıranların böyük qismi əhəmiyyətli dərəcədə çəki toplayır. Hər 5 nəfərdən 4-ü verdiyi çəkinin ən azı 25 faizini geri alır. 36 həftəlik beynəlxalq klinik araşdırmada “Mounjaro” istifadə edən şəxslərin iynəni dayandırdıqdan sonra 1 il ərzində verdikləri çəkinin ən azı 25 faizini geri aldıqları müəyyən edilib”.




**İynəni dayandırandan sonra...**

İ.Əlibəyli qeyd edib ki, iynəni dayandırdıqdan sonra yenidən çəki alan şəxslərdə qan təzyiqi yüksəlir və bu, insult riskinin artmasına səbəb olur: “İynənin təsiri bitdikdən sonra, həyat tərzi dəyişikliklərinə baxmayaraq, insanların böyük qismi yenidən çəki alır. Buna görə piylənmənin uzunmüddətli müalicəsində davamlılıq əsas rol oynayır”.

**Həzm prosesini yavaşladır**

Həkim bildirib ki, belə dərmanlar bədəndə təbii olaraq mövcud olan hormonu təqlid edən GLP-1 aqonistləri sinfinə aiddir: “ “Mounjaro” bədənin ehtiyac duyduqda daha çox insulin istehsal etməsinə, qaraciyərin qlükoza hasilatını azaltmasına və həzmi yavaşlatmasına səbəb olur. Arıqlamça iynəsi dayandırıldıqda toxluq siqnalları zəifləyir, aclıq hormonu yüksəlir, toxluq siqnalları zəifləyir və bədən əvvəlki çəkiyə qayıtmağa meyilli olur. Bu, “set-point” nəzəriyyəsi ilə izah edilir. Bu nəzəriyyədə qeyd edir ki:

- sürətli çəki itkisi zamanı metabolizm yavaşlayır
- iştah artır, metabolizm isə hələ də aşağı səviyyədə qalır
- iynə iştahı azaltdığı üçün insanlar davranış dəyişikliyi etmədən arıqlayır
- dərman dayandırıldıqda köhnə vərdişlərə dönüş baş verir.

Ona görə də iynəni dayandıran şəxslərin çəkisini qorumaq üçün protein və lifdən zəngin qidalanmaya keçməsi, müqavimət məşqləri etməsi, porsiya nəzarəti və emosional yemə davranışlarını idarə etməsi vacibdir”.

**Metabolizmi köklü və daimi dəyişdirmir**

Mütəxəssis vurğulayıb ki, bu dərmanlar metabolizmada daimi dəyişiklik yaratmır. Dərman dayandırıldıqda hormonal sistem əvvəlki vəziyyətinə qayıdır, iştah artır: “Buna görə də çəkini qorumaq çətinləşir. Yüngül çəkisi olanların isə iynə istifadə etməsi doğru deyil. 5-10 kilo artıq çəkisi olanların bu dərmanlardan istifadəsi məsləhət görülmür. Bu dərmanlar piylənmə və metabolik risk daşıyan şəxslər üçün hazırlanıb. Yüngül çəkisi olanlarda iynə istifadəsi əzələ itkisinə səbəb ola bilər, metabolizmanı daha da zəiflədə bilər”.

**Estetik məqsədlə təyin olunmamalıdır**

Endokrinoloqun fikrincə, tibbi göstəriş olmadan arıqlama iynələrinin estetik məqsədlə yazılması həm etik deyil, həm də bəzi ölkələrdə cinayət hesab olunur: “Xəstəliyi olmayan şəxslərin bu dərmanları istifadə etməsi təhlükəlidir və bir çox riskə səbəb ola bilər:

**Müvəqqəti həll, yoxsa qalıcı nəticə?**

- bulantı, qusma, həzmsizlik
- pankreas iltihabı
- öd kisəsi problemləri
- böyrək funksiyasında pozulmalar
- bəzi şişlərin yaranma riski
- hipoqlisemiya
- əzələ itkisi və qida çatışmazlıqları.

Xərçəng xəstəliyi son illərdə həm Azərbaycanda, həm də dünyada çox sürətlə yayılıb və cavanlaşır. Aparılan araşdırmalara görə, onkoloji xəstəliklərin yaranmasının 50-60 faizi qidalanma ilə bağlıdır. Xərçəng xəstəliyinin rast gəlinmə tezliyi kilolu insanlarda daha çoxdur. Bu, maddələr mübadiləsinin pozulması ilə əlaqədardır. Kilolu insanlarda mədə-bağırsaq, eləcə də süd vəzi xərçənginə daha çox rast gəlinir. Çəkisi norma daxilində olan insanların isə xərçəngə yoluxma riskləri daha azdır.

Arıqlamaq üçün xüsusən qadınlar bir sıra dərman pereparatlarından istifadə edirlər. Lakin bilmək lazımdır ki, hansısa reklamda göstərilən iynəni yaxud dərmanı özbaşına qəbul etmək fəsadlar yarada bilər. Məhz arıqlamaq, daha sağlam çəkiyə qovuşmaq üçün dərman və ya iynə qəbul ediləcəksə, bunu mütləq həkimin məsləhəti və nəzarəti altında etmək lazımdır. Əks halda çəki atmaq yerinə, daha ciddi xəstəliklərlə qarşılaşa bilərlər”.




# Azercell “Bakı Marafonu 2026”-nın eksklüziv tərəfdaşıdır

3 may 2026-cı il tarixində Heydər Əliyev Fondunun təşəbbüsü və “Azercell Telekom” MMC-nin eksklüziv tərəfdaşlığı ilə “Bakı Marafonu 2026” keçiriləcək. Ölkənin idman təqvimində xüsusi yer tutan layihə bu il də minlərlə iştirakçını bir araya gətirərək sağlam həyat tərzinin təşviqi və ictimai həmrəyliyin gücləndirilməsi məqsədinə xidmət edəcək.

“Küləyə qalib gəl” şüarı altında keçirilən doqquzuncu Bakı Marafonu ilk dəfə 42 km tam məsafədə təşkil olunacaq. Yarış Dövlət Bayrağı Meydanından start götürəcək və iştirakçılar müəyyən edilmiş marşrut üzrə “Sea Breeze” ərazisində finiş xəttinə çatacaqlar. Marşrut boyunca 10 km və 21 km məsafələr üçün də ayrıca finiş xətləri nəzərdə tutulub.

Qeydiyyat prosesi Gənclik Mall, 28 Mall və Dəniz Mall-da fəaliyyət göstərən xüsusi məntəqələrdə, eləcə də www.marathon.az platforması üzərindən onlayn qaydada aparılır. Tələbələr üçün iştirak ödənişsizdir. Qeydiyyat üçün son tarix 25 aprel 2026-cı ildir.

“Azercell Telekom” MMC 2017-ci ildən etibarən layihənin baş sponsoru və eksklüziv tərəfdaşı qismində çıxış edir. Şirkət hər il olduğu kimi, 2026-cı ildə də rəhbər heyətin, əməkdaşların və korporativ tərəfdaşların iştirakı ilə marafona fəal dəstək verəcək, idman və sosial məsuliyyət dəyərlərinin təşviqinə töhfəsini davam etdirəcək.

# BMT-nin hesabatında...

## Dünyada 1 milyarddan çox insan yaxın 5 ildə öz torpaqlarından və evlərindən məhrum olmaqdan ehtiyatlanır

Torpaq mülkiyyətinin və onun idarəetməsinin gücləndirilməsində qlobal irəliləyişlərə baxmayaraq, dünyada 1 milyarddan çox insan - təxminən hər dörd yetkindən biri növbəti 5 il ərzində torpaqlarının və evlərinin bir hissəsinə və ya hamısına olan hüquqlarını itirə biləcəyindən ehtiyatlanır. Bu qənaət iqlim dəyişikliyi, biomüxtəlifliyin qorunması, gender bərabərliyi və kənd yerlərinin transformasiyasına artan diqqət fonunda torpaq hüquqları ilə bağlı daha güclü siyasi öhdəliklərə və inklüziv siyasətlərə ehtiyac olduğunu vurğulayan BMT tərəfindən dəstəklənən hesabatda yer alır.

AZƏRTAC BMT-nin yeni hesabatına istinadla xəbər verir ki, son 2 onillikdə hökumətlər Afrikada torpaq siyasəti və torpaqların, balıqçılığın və meşələrin məsuliyyətli tənzimlənməsi kimi məsələlər üzrə milli və beynəlxalq çərçivələr qəbul ediblər. Nəticədə 70-dən çox ölkə torpaq islahatı istiqamətində səylər göstərib.

Lakin irəliləyiş artıq geridə qalır. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Beynəlxalq Torpaq Koalisiyası (ILC) və Fransanın kənd təsərrüfatı tədqiqat və əməkdaşlıq təşkilatı CIRAD tərəfindən hazırlanan hesabata görə, hazırda dünyada torpaqların cəmi 35 faizinin mülkiyyət və ya istifadə hüquqları rəsmi olaraq sənədləşdirilib. Əlavə dəlillərə 1,1 milyarddan çox insanın



“torpaq təhlükəsizliyini” hiss etməsi daxildir, çünki onlar yaxın illərdə evlərini və ya əmlaklarını itirə biləcəklərini ehtimal edirlər.

FAO-nun baş iqtisadçısı Maksimo Torero Kallen bildirib: “Torpaq təhlükəsizliyi bərabərsizliyin ən zərərli formalarından biridir və bunun əvəzi aşağı məhsuldarlıq, zəif dayanıqlıq və daha pis qidalanmaqdır. Təhlükəsiz torpaq mülkiyyəti davamlı investisiyalara imkan verir, qısamüddətli yaşam və uzunmüddətli ərzaq təhlükəsizliyi arasındakı fərqdir”.

Mülkiyyəti və idarəetmə statusu torpağın necə sahibləndiyini, istifadə və idarə olunduğunu izləmək üçün hazırlanmış ilk əhatəli qlobal araşdırma kimi təsvir olunur. Bu araşdırma dövlətlərin dünya miqyasında torpaqların 64 faizindən çoxuna qanuni mülkiyyət hüququna malik olduğunu göstərir. İstər fərdlərin, istər şirkətlərin, istərsə də kollektivlərin olsun, bütün torpaqların dörddəbirindən bir qədər çoxunun özəl mülkiyyətdə olduğu məlumdur. Qalan 10 faizin və ya daha çoxunun mülkiyyət statusu məlum deyil. Xüsusilə, dünyada torpaqların təxminən 18 faizi və ya 2,4 milyard hektarı fərdi şəxslərə və korporasiyalara məxsusdur. Kənd təsərrüfatı torpaqları nəzərə alındıqda, ən böyük torpaq sahiblərinin 10 faizi əkin altında olan bütün torpaqların təxminən 90 faizini idarə edir.

FAO bildirib ki, bu ərazilərdə təxminən 45 giqaton bərpa olunmayan karbon var. Bu karbon meşə biomlarında rast gələnən iqlim zərərinin qarşısını almaq üçün vaxtında geri qaytarıla bilməz və ya qlobal ümumi karbonun 37 faizinə bərabərdir”, - deyə FAO bildirib. Başqa sözlə, buraxılan hər hansı bir karbon qlobal istiləşmənin qarşısını almaq üçün kifayət qədər tez bir zamanda yenidən udula bilməz.

BMT agentliyi qeyd edib ki, urbanizasiya, neft və qaz hasilatı və mədənçilik kimi insan fəaliyyəti də əkinəyararlı torpaqların azalmasına səbəb olur. “Paradoksal olaraq, bərpaolunan enerji, bioyanacaq, qoruma və karbon kompensasiyasına yönəlmiş bəzi iqlim həlləri də ciddi nəticə vermir”, -deyə FAO əlavə edib.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4862**
**Sifariş: 269**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova